

## ABŞ-NİN "AXİLLES DABANI"

Texasla Ağ ev arasında gərginlik artır. Ştatın müstəqillik arzusuna düşə biləcəyi ilə bağlı gözləntilər də var. Dünyanın müxtəlif nöqtələrində separatizmi dəstəkləyən ABŞ indi özü bu təhlükə ilə üz-üzədir. Əksəriyyət hesab edir ki, ABŞ tarixinin ən problemli günlərini yaşayır.

SƏHİFƏ 6-da

# AŞPA-YA TUTARLI CAVAB



Azərbaycanın Cənubi Qafqazda böyük geosiyasi dəyişiklik yaratması əməkdaşlıq müstəvisində nəzərə alınmalıdır. Ona müxtəlif bəhanələr altında təzyiq göstərilməsinə son qoyulmalıdır.

AŞPA-nın planlı təzad sistemi yaratması tək Bakıya qarşı deyil, eləcə də Qərbin Azərbaycanla strateji tərəfdaşlığı ən üst səviyyəyə çıxarmaq məramını baltalayır. Sözsüz ki, AŞPA oyunda piyadadır, onu irəliyə çəkən həmmüəlliflər isə irili-xırdalı kateqoriyalara bölünür. Burada ən çox pay və baş rol Fransaya məxsusdur.

Azərbaycan qarşılıqlı cavab hüququna malikdir. Prezident İlham Əliyev həmin cavab hüququnu belə təqdim edir: "Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq".

SƏHİFƏ 4-də


'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



3 FEVRAL ŞƏNBƏ 2024 I 04 (4155) Qiyməti - 40 qəpik www.kaspi.az




## BORC İÇİNDƏ BOĞULAN ERMƏNİSTAN

Son illər Ermənistanın dövlət borcu kəskin şəkildə artıb. Təkcə bu il xarici borclara xidmətlə bağlı xərclərin iki milyard dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu rəqəm ötən illə müqayisədə 500 milyon dollar çoxdur. Paşinyanın sosial sektorda yeni proqramlar vədi isə, fiaskoya uğrayıb.

SƏHİFƏ 7-də



## İSTEHSALI AZALIB, QİYMƏTİ ARTIB

Statistikaya görə, qızıl istehsalımızda azalma mövcuddur. Ekspertlər düşünürlər ki, işğaldan azad olunmuş ərazilərimizdəki qızıl mədənləri fəaliyyətə başladıqda problem aradan qalxacaq. Çünki işğaldan azad olunmuş ərazilərimizdə daha intensiv şəkildə qızıl hasilatı mümkündür.

SƏHİFƏ 10-da

### YÜZLƏRLƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİ BU PROSESİ İZLƏYƏCƏK

# AZƏRBAYCAN TARİXİ SEÇKİYƏ HAZIRDIR

Müstəqillik tariximizdə ilk dəfə olaraq seçki prosesi bütün suveren ərazilərimizi əhatə edəcək. Bu proses yeni bir dövrün başlanğıcı kimi də dəyərləndirilir.




**BEYNƏLXALQ MARAQ BÖYÜKDÜR**

Artıq prosesi müşahidə etmək üçün 86 min 490 müşahidəçi qeydiyyatdan keçib. Onlardan 790 nəfəri beynəlxalq müşahidəçilərdir. İndiyədək Yaponiya, İtaliya, Almaniya, Türkiyə, Rusiya və digər ölkələrdən 63 media qurumunun 119 əməkdaşı seçki prosesinin işıqlandırılması üçün müraciət edib.

**QARŞIMIZDA MÜHÜM HƏDƏFLƏR VAR**

Millət vəkili Sevinc Hüseynovanın qənaətincə, prezident seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi tarixində yeni bir mərhələnin başlanğıcıdır. Deputat bildirib ki, Azərbaycanın qarşısında mühüm hədəflər var: "Bu hədəflər dövlətçiliyin güclənməsi fonunda inteqrasiyanı ehtiva edir".

SƏHİFƏ 3-də

### Karyerası üçün sərhədləri aşmağı bacarıb

# "Hər gün 10 yerdən rədd cavabı alırdım"

Şəkidə başlayan həyatı Avropaya qədər uzanıb. Deyir ki, məktəbdə oxuyarkən Bakıya gəlmək onun üçün önəmli addım idi. Amma karyerasının ardınca nəinki rayondan şəhərə köçüb, sərhədlər aşıb. Hazırda dünyanın aparıcı ölkələrində zavodlar inşa edən şirkətin üzvüdür.



Müsahibimiz ABŞ-Pentair şirkətində neft-kimya, bioqaz sənayesi istiqamətində proses mühəndisi Həcər Hidayətovadır. Həcər şirkətin Almaniya və Niderland ofisində fəaliyyət göstərir. "Ailəm darıxsa da, mənimlə fəxr edir, dəstəkləyir", - deyir.

SƏHİFƏ 8-9-da



## MAKRON FRANSASI: TƏNƏZZÜL, İFLAS VƏ QALMAQAL

Parisin casusluq niyyətlərinin Azərbaycan tərəfindən deşifrə edilməsi mövcud potensialından ağır yük qaldırmaq eşqinə düşən Makron üçün xarici siyasət qalmaqalıdır.

SƏHİFƏ 5-də



## BU VİRUS ÖLDÜRMÜR, SÜRÜNDÜRÜR

İnsanlar son üç ildə müşahidə olunan xəstəliklərin əvvəlkilərlə müqayisədə ağır keçdiyini vurğulayırlar. Məsələn, "qrip heç vaxt bu qədər sərt olmayıb" kimi fikirlərə tez-tez rast gəlirik.

SƏHİFƏ 14-də



## MƏNZİL FIRILDAQÇILIĞI DÜYÜNÜ ÇÖZÜLÜR

Mənzil almaq istəyən insanlar üçün yeni qaydalar qüvvəyə minir, vahid platforma yaradılır. Ekspertlər bildirirlər ki, bundan sonra MTK-lar tərəfindən vətəndaşların aldadılması hallarına son qoyulacaq.

SƏHİFƏ 11-də



Sanki yaxşılıq etmək üçün doğulmuşdu...

SƏHİFƏ 15-də



Şəhər içində şəhər ideyası

SƏHİFƏ 12-də



SOCAR İstiqrazlarının növbəti ödənişi edilib

SƏHİFƏ 13-də



Dövlət qurumlarını hədəf alırlar

SƏHİFƏ 13-də



Xavi də "Barsa"ya dərman ola bilmədi

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# BMT ilə yaxından əməkdaşlığa hazırıq

Prezident İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul edib. Bakının gözəlliyinin onda heyranlıq doğurduğunu deyən Saymon Stil COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Qonaq BMT-nin faktaraşdırıcı missiyasının artıq Azərbaycanda olduğunu və Azərbaycan tərəfi ilə səmərəli müzakirələr apardığını qeyd edib. O, COP29-un keçirilməsi üzrə Azərbaycanda yaradılmış təşkilat komitəsində qadınların yer almasını müsbət dəyərləndirib.

Prezident İlham Əliyev vurğulayıb ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan tərəfi bu tədbirin uğurla keçirilməsi üçün bu təşkilatla və bütün BMT ailəsi ilə yaxından əməkdaşlıq etməyə hazırdır. Azərbaycanın beynəlxalq tədbirlərin təşkili üzrə zəngin təcrübəsinin olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, COP29 ölkəmizdə keçirilən və ümumiyyətlə dünyada miqyasına görə ən çox iştirakçının qatıldığı tədbirlərdən biri olacaq. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfindən həm təşkilati, həm də tədbirin mahiyyəti nöqteyi-nəzərindən bütün zəruri addımlar atılır və bu baxımdan ölkəmiz beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlığı yüksək qiymətləndirir.

Dövlətimizin başçısı qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliləyə aparılması kontekstində əldə edilib və bu da ümumiyyətlə COP-un tarixində yeni bir inkişafdır.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb.

Görüşdə COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri, COP29 və COP30-a müvafiq olaraq ev sahibliyi edəcək Azərbaycan və Braziliya arasında üçtərəfli əməkdaşlığın vacibliyi vurğulandı.



# İLHAM ƏLİYEVƏ BÖYÜK ETİMAD VAR

“Hazırkı Prezident İlham Əliyevin gördüyü işləri necə qiymətləndirərdiniz?” sualına 96.0% seçici əla, 2,5% yaxşı, 0,8% qənaətbəxş cavabını verib. Bundan əlavə, seçicilər Azərbaycanın yaşamaq üçün təhlükəsiz ölkə olduğunu hesab edirlər.

ABŞ-nin “Oracle Advisory Group” təşkilatı Azərbaycanda 7 fevral 2024-cü il tarixdə keçiriləcək növbədənkənar prezident seçkiləri ərəfəsində ilkin rəy sorğusunun nəticələrini açıqlayıb. “Report”un məlumatına görə, təşkilatın nümayəndəsi George Brinbaum deyib ki, “Oracle Advisory Group” və “Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası” Azərbaycanda seçki mühitinin ölçülməsi məqsədilə sosioloji sorğu keçirib.

Onun sözlərinə görə, sosioloji sorğunun keçirilməsində əsas məqsəd prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsi olub: “Sorğuya ümumilikdə Azərbaycanın müxtəlif rayonlarından 3 000 nəfər respondent cəlb edilib. Bunlardan 24,1%-i Bakı şəhərindən, 8,3% digər böyük şəhərlərdən, 21,3%-i kiçik şəhər və qəsəbələrdən, qalanları isə (46,3%) kəndlərdən olub. Sorğuda iştirak edənlərin 49,3%-i (1 479 nəfəri) qadın, 50,7%-i (1 521 nəfəri) kişi olub”.




### SEÇKİLƏRDƏ OLAN AKTİVLİYİN GÖSTƏRİCİSİ

“Ümumiyyətlə, əvvəllər Azərbaycanda keçirilən prezident seçkilərində iştirak etmisiniz?” sualına 34,9% “Demək olar ki, hər zaman” variantını seçib. Daha 28,4% “Hər zaman”, 11,1% “Çox vaxt” cavabı verib. Bu isə əhalinin seçkilərdə olan aktivliyinin göstəricisidir. Sorğuda iştirak edənlərdən 4,5% ilk dəfə səs verdiyini, 16% demək olar ki, səs vermədiyini, 5% isə ümumiyyətlə səsvermədə iştirak etmədiyini bildirib. Əhalinin prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə ünvanlanmış “Hazırda ölkəmizin üzləşdiyi ən vacib problem hansıdır?” sualına 2,3% iqtisadi vəziyyəti, 34,9% məşğulluğu, 27,1% əmәkhaqqını, 0,4% Azərbaycanın beynəlxalq arenada rolunu, 0,1% cinayətkarlığı, 14,1% korrupsiyanı, 6,7% təhsili, 0,2% ekologiyanı, 13,1% səhiyyəni, 1,1% isə məişət zorakılığını qeyd edib.

Seçicilər arasında ölkənin “düzgün istiqamətdə” getdiyi və Prezidentin yaxşı iş gördüyü barədə əminlik hissi var.

## “HANSI NAMİZƏDƏ SƏS VERƏRDİNİZ?”

“Azərbaycanın getdiyi yolun ümumi istiqamətini necə qiymətləndirirsiniz?” sualına seçicilərin 81,2%-i “düzgün istiqamət”, 12,3%-i isə “yanlış istiqamət” cavabını verib.

“Hazırkı Prezident İlham Əliyevin gördüyü işləri necə qiymətləndirərdiniz?” sualına 96.0% seçici əla, 2,5% yaxşı, 0,8% qənaətbəxş cavabını verib.

“Prezident seçkiləri bu günə təyin edilsəydi və namizədlər aşağıdakı şəxslər olsaydı, kimə səs verərdiniz?” sualına verilən cavablar göstərir ki, respondentlərin böyük əksəriyyəti hazırkı ölkə rəhbərindən razıdır. Belə ki, respondentlərdən 97% İlham Əliyevin, 1.2% Zahid Orucun, 0.7% Fazil Mustafanın, 0,5% Razi Nurullayevin, 0,3% Qüdrət Həsənquliyevin, 0,2% Fuad Əliyevin, 0,1% isə Elşad Musayevin adını çəkib.

## AZƏRBAYCANIN BÖYÜK UĞURU

Nəhayət, Qarabağdakı qələbə ictimaiyyət tərəfindən Azərbaycanın böyük uğuru kimi qiymətləndirilir.

Respondentlərin 98,50%-i “Siz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həyata keçirilən genişmiqyaslı hərbi əməliyyatları dəstəklədinizmi?” sualına müsbət cavab verib. Bu rəqəm yüksək milli ruhu nümayiş etdirir.

### ƏHALİ PREZİDENT SEÇKİLƏRİ İLƏ BAĞLI MƏLUMATLIDIR

Bütün cavablar əhalinin mövcud hökumətin fəaliyyətinə münasibətinin açıq ifadəsidir. Belə ki, verilən cavablar əhalinin hazırkı iqtidarın hakimiyyətinə olan inamını və dəstəyini əks etdirir.

Beləliklə, bilavasitə Prezident İlham Əliyevin fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin öyrənilməsinə yönəlmiş seçki öncəsi sorğunun nəticələrinə əsasən deyə bilərik ki, əhali İlham Əliyevin hakimiyyətinə inanır və onun siyasi xəttini dəstəkləyir.

ABŞ-nin “Oracle Advisory Group” təşkilatı və “Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası” (VƏHML) bu qənaətə gəlir ki, əhali fevralın 7-nə təyin edilmiş prezident seçkiləri ilə bağlı məlumatlıdır. Bu, dövlətin həyata keçirdiyi maarifləndirmə və məlumatlandırma işinin yüksək səviyyədə aparılmasından xəbər verir.

YÜZLƏRLƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİ, MEDİA QURUMLARI BU PROSESİ İZLƏYƏCƏK

# AZƏRBAYCAN TARİXİ SEÇKİYƏ HAZIRDIR

Müstəqillik tariximizdə ilk dəfə olaraq seçki prosesi bütün suveren ərazilərimizi əhatə edəcək. Bu proses ölkəmizin tarixi qələbələrindən sonra yeni bir dövrün başlanğıcı, Azərbaycan xalqının gələcək strateji inkişaf strategiyasına münasibəti kimi də dəyərləndirilir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Fevralın 7-də Azərbaycanda 2024-cü ilin ən mühüm hadisələrindən biri - növbədənkənar prezident seçkiləri keçiriləcək. Müstəqillik tariximizdə ilk dəfə olaraq seçki prosesi bütün suveren ərazilərimizi əhatə edəcək. Bu proses ölkəmizin tarixi qələbələrindən sonra yeni bir dövrün başlanğıcı, Azərbaycan xalqının gələcək strateji inkişaf strategiyasına münasibəti kimi də dəyərləndirilir.

**HAZIRLIQ PROSESİ DAVAM EDİR**

Qeyd edək ki, növbədənkənar prezident seçkilərinə artıq sayılı günlər qalıb. Hazırlıq prosesi isə tam sürətlə davam edir. Secki-2024.az saytı xəbər verir ki, 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Sözügedən veb-kameralar istər ölkə daxilində, istərsə də xaricdəki internet istifadəçilərinə səsvermə günü Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə imkanı yaradacaq.

**BEYNƏLXALQ MARAQ BÖYÜKDÜR**

Növbədənkənar prezident seçkilərini izləmək üçün beynəlxalq müşahidəçilərin də ölkəmizə axını davam edir. Artıq prosesi müşahidə etmək üçün 86 min 490 müşahidəçi qeydiyyatdan keçib. Onlardan 790 nəfəri beynəlxalq müşahidəçilərdir.

ATƏT-in Parlament Assambleyasından (PA) olan 80-dən çox müşahidəçi də fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri üçün ölkəmizə gələcək. Müşahidəçi nümayəndə heyətinin rəhbəri ATƏT PA-nın vitse-prezidenti Daniela De Ridder (Almaniya), ATƏT-in qısamüddətli müşahidə missiyasının xüsusi əlaqələndiricisi və rəhbəri isə İqtisadiyyat və Ətraf Mühit Komitəsinin sədr müavini Artur Gerasimov (Ukrayna) olacaq. “Biz prezident seçkilərinin demokratik prinsiplərə nə dərəcədə uyğun olduğunu, azad səsvermə prosedurlarının, ədalətli atmosferin, medianın əlçatanlığının və nəticələrin dəqiq işıqlandırılmasının təmin olunmasına nəzarət üçün ATƏT DTİHB missiyası ilə sıx əməkdaşlıq edirik”, - deyə D.De Ridder bildirib.

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın (GUAM) missiyası isə Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün fevralın 6-da tam tərkibdə Bakıya gələcək. Altı nəfərdən ibarət olacaq nümayəndə heyətinə GUAM-ın Baş katibi Altay Əfəndiyev, Ukrayna Ali Radasının deputatları Svyatoslav Yuraş, Mixail Papiyev, Gürcüstan parlamentinin deputatı David Matikaşvili, GUAM Katibliyinin proqram koordinatorları Teymuraz Kiladze və Səbuhi Təmirov daxildir.

Prosesi işıqlandırmaq üçün xarici media orqanlarının qeydiyyat prosesi də davam edir. İndiyədək Yaponiya, İtaliya, Almaniya, Türkiyə, Rusiya və digər ölkələrdən 63 media qurumunun 119 əməkdaşı seçki prosesinin işıqlandırılması üçün müraciət edib.




## SEÇKİLƏR TARİXİMİZDƏ YENİ SƏHİFƏLƏR AÇACAQ

Prezident seçkilərinin yeni dövrün başlanğıcı olacağı ilə bağlı yerli və xarici siyasi xadimlərin rəyləri də diqqət çəkir.

“Demokratik və şəffaf seçkilər istənilən xalqın, ölkənin sabitliyinin və firavanlığının təminatçısıdır”. Bu fikirləri secki-2024.az saytına açıqlamasında Qırğız Respublikasından olan siyasi xadim Zayırbek Ergeşev bildirib. Onun sözlərinə görə, Azərbaycanda növbədənkənar prezident seçkilərinin Qarabağı işğaldan azad etdikdən sonra ilk dəfə keçirilməsi əlamətdar hadisədir. “Siyasi texnologiyalar nöqteyi-nəzərindən hazırkı münbit siyasi vəziyyətdən istifadə edərək, ölkənin suverenliyinin və müstəqilliyinin daha da möhkəmləndirilməsi, Azərbaycanın dünya ictimaiyyətində, beynəlxalq aləmdə nüfuzunun qaldırılması üzrə tədbirlər görmək lazımdır. Ona görə də, bu prezident seçkiləri Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edir və Azərbaycan xalqının tarixində yeni səhifələr açacaq”, - deyə qırğızıstanlı siyasi xadim fikrini yekunlaşdırıb.

**HƏDƏFLƏRİN REALLAŞDIRILMASI ÜÇÜN BAŞLICA ZƏMİN**

Millət vəkili Sevinc Hüseynovanın qənaətincə isə, prezident seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi tarixində yeni bir mərhələnin başlanğıcıdır. Deputat bildirib ki, Azərbaycanın qarşısında mühüm hədəflər var: “Bu hədəflər dövlətçiliyin güclənməsi fonunda inteqrasiyanı ehtiva edir. Bu gün Azərbaycan regional və qlobal miqyasda söz sahibinə çevrilib”.

“Bu gün ölkəmizin qarşısında duran başlıca hədəflərdən biri də güclü dövlət konsepsiyası ilə regional və qlobal miqyasda sülhü, əməkdaşlığı təşviq etməkdən ibarətdir”, - deyən Sevinc Hüseynova xüsusi vurğulayıb ki, prezident seçkiləri Azərbaycanın qarşıya qoyduğu hədəflərini reallaşdırması üçün başlıca zəmin hesab olunur.



Sevinc Hüseynova

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



# AŞPA-ya TUTARLI CAVAB

Azərbaycanın Cənubi Qafqazda böyük geosiyasi dəyişiklik yaratması əməkdaşlıq müstəvisində nəzərə alınmalıdır, ona müxtəlif bəhanələr altında təzyiq göstərilməsinə son qoyulmalıdır. Yox, AŞPA kimi qurum bunu başa düşmək istəmirsə, onda Azərbaycan qarşılıqlı cavab hüququna malikdir.



AQŞİN KƏRİMOV

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan nümayəndə heyətinin etimadnaməsini ratifikasiya etməməsi rəsmi Bakı ilə qurum arasındakı gərgin dinamikanı bu zamana qədər misli görünməmiş həddə qədər qaldırıb. Təbii ki, AŞPA-nın qərarının arxasında diplomatik, parlament etikası və ümumi siyasi etiketlərlə məqsədli ziddiyyət təşkil edən məqamlar əsas yer tutur.

AŞPA-nın planlı təzad sistemi yaratması tək Bakıya qarşı deyil, eləcə də Qərbin Azərbaycanla strateji tərəfdaşlığı ən üst səviyyəyə çıxarmaq məramını baltalayır.

Sözsüz ki, AŞPA oyunda piyadadır, onu irəliyə çəkən həmmüəlliflər isə iri-xırdalı kateqoriyalara bölünür.

### AŞPA VƏ FRANSA EYNİ İP ÜSTÜNDƏ

Həmin həmmüəlliflikdə ən çox pay və baş rol Fransaya məxsusdur. Paris Cənubi Qafqazdakı rəqabətdə uduzmasını AŞPA-dan istifadə etməklə tarazlaşdırmağa çalışır.

Elə Azərbaycan Prezidenti İlham Əliyev də fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən Fransanın regionda odun üstünə yanacaq tökmək missiyasından bəhs edib. Heç şübhəsiz ki, İlham Əliyevin Fransa ilə bağlı xatırlatmalar etməsi həm Parisin regiondakı məğlubiyyətlərinin xronoloji ardıcıllıqlarını, həm də onun yeni "hücumlar" hazırladığı barədə təsvirlər verə bilər.

Prezident İlham Əliyev qeyd edir ki, AŞPA-nın Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiqləməməsi azlıq olan bir qrupun dialoqa xidmət etmədiyinin göstəricisidir.

Deməli, İlham Əliyevin özü də Qərblə strateji, qarşılıqlı maraqların konstruktiv formada təmini üçün dialoqda maraqlıdır. Lakin AŞPA kimi qurumlar həmin məqsədlərin önünə tikanlı məftil çəkmək istəyir ki, bunun özü də Avropa İttifaqı ilə Azərbaycan arasındakı strateji tərəfdaşlığın mahiyyətinə xələl gətirmək məqsədləri güdür.

Lakin bu o demək deyil ki, rəsmi Bakı AŞPA-nın erməni təbliğat maşınına çevrilərək Azərbaycana qarşı sistemli hücumlar üçün sinəsini qabağa verməsini cavabsız qoymalıdır.



## BU GÜN AZƏRBAYCAN QƏRBƏ ÇOX LAZIMDIR

Şəksiz ki, bu gün Azərbaycan Qərbə çox lazımdır. Ölkənin əhəmiyyətli geosiyasi və geoiqtisadi mövqeyi, beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi, zəngin təbii sərvətlərinin Avropaya diversifikasiya edilməsi elə Qərbin ürəyincədir.

Amma belə istək səmimi və səmərəli əməkdaşlıqla mümkündür. Azərbaycanın Cənubi Qafqaz orbitində böyük ölçülü geosiyasi dəyişiklik yaratması əməkdaşlıq müstəvisində nəzərə alınmalıdır, ona müxtəlif bəhanələr altında təzyiq göstərilməsinə son qoyulmalıdır.

Yox, AŞPA kimi qurum bunu başa düşmək istəmirsə, onda Azərbaycan qarşılıqlı cavab hüququna malikdir. Prezident İlham Əliyev AŞPA-ya nisbətdə həmin cavab hüququnu belə təqdim edir: "Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq".

Bu mövqe ümumilikdə Avropa Şurasının dərinləşən beynəlxalq böhran fonunda əhəmiyyət və qiymətini itirməsini izah edən qısa hekayə kimi başa düşülə bilər. Deməli, Avropa Şurası böhranlardan çıxış yolu tapan, münaqişə və mübahisəli məsələləri yoluna qoyan missiyasından imtina edərək faydasız geosiyasi alət rolunda çıxış edir. Belə olan təqdirdə, Azərbaycan da belə qurumda iştirakına nəzər salmaq hüququna müraciət edir.

Yeri gəlmişkən, AŞPA-nın geosiyasi hibrid toqquşmalarda piyada olmasını sübut edən başqa faktor onun Ermənistanın sülhü əngəlləyən maraqlarına, erməni lobbisinin tezislərinə can yandırmasıdır.

## ERMƏNİSTAN KONSTİTUSİYASI DƏYİŞDİRİLMƏLİDİR

Təsadüfi deyil ki, İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqla görüşdə Ermənistanla sülh gündəliyi kontekstində AŞPA məsələsini qabartdı. AŞPA-nın Azərbaycana qarşı addımlarına cavab olaraq Əliyev daha böyük bir gündəliklə çıxış edib. Söhbət Ermənistan Konstitusiyasının dəyişdirilməsi zərurətinin regional reallıqlarla əlaqəsindən gedir. İlham Əliyev deyib ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır. Dövlət başçısı vurğulayıb ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var. Prezident qeyd edib ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər.

Bu, Azərbaycanın İrəvanın keçmiş niyyətlərinə və indiki bəzi qeyri-müəyyən mövqeyinə qahmar çıxmaq istəyən Fransa, AŞPA və onun kimi qurumlara Bakının şərtli sülh gündəliyi formatındakı mənalı cavabıdır.

İndi Ermənistan Qərbdəki "təhlükəsizlik zəmanətləri" vədlərinə arxalanıb prosesi arzuolunmaz regional hərəkətləri təşkiləyəcək vəziyyətə gətirməməlidir. Çünki Azərbaycan regionda böyük üstünlükləri olan dövlət olaraq qalmaqdadır və Cənubi Qafqaz səhnəsindəki rolunun daha da gücləndəcəyi şübhəsizdir. Ona görə də, Ermənistan özü üçün strateji təsirlərə çevriləcək nəticə istəyirsə, mümkün konstitusiya dəyişikliklərini AŞPA, Fransa ilə deyil, Azərbaycan və Türkiyə ilə müzakirə etməlidir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# MAKRON FRANSASI: TƏNƏZZÜL, İFLAS VƏ QALMAQAL

Parisin casusluq niyyətlərinin Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən deşifrə edilməsi mövcud potensialından ağır yük qaldırmaq eşqinə düşən Makron üçün xarici siyasət qalmaqalıdır. Onun XİN rəhbərliyində etdiyi dəyişikliklər isə "qaşı düzəltmək əvəzinə vurub gözü çıxarmaq"dır.



RÜSTƏM QARAXANLI

Makron Fransasının uğursuzluqları bitmək bilmir. Həm daxili, həm də xarici siyasətdə. Xaricdən gətirilən ucuz ərzağa etiraz edən yerli fermerlərin Paris küçələrini iflic vəziyyətinə saldıqları günlərdə Fransanın xarici siyasəti də öz böhranını yaşayır: Afrikadakı müstəmləkələr bir-bir əldən gedir. Özünü yeni Napoleon hesab edən Makron bu fatehlə yalnız onun hakimiyyət illərində verdiyi qurbanların sayı ilə müqayisə edilə bilər. Bonapart imperator olduğu dövrdə döyüş meydanlarında 3 milyon nəfərlik itki vermişdi. Makronun itkiləri insanlarla deyil, ölkələrlə ölçülür.

**"QARA QİTƏ" İFLASI**

Ötən həftə Paris "qara qitə"də iki ardıcıl diplomatik zərbə aldı. Əvvəl Burkina-Faso, Mali və Niger Fransanın patronajlığı altında olan EKOVAS təşkilatını tərk etmək niyyətlərini bəyan etdilər. Sonra isə məlum oldu ki, Makron Qabon, Seneqal və Kot-dİvuardakı hərbi kontingentini azaltmaq barədə düşünür. Təbii ki, "düşünmür", buna məcbur edilir. Afrikadakı ölkələrdə milli özünüdərkin inkişafı Fransanın bu qitədə əsrlərlə davam edən və dövlətlərin iqtisadi potensialının, faydalı qazıntılarının qəsb edilməsi ilə müşayiət olunan neokolonializmi, belə görünür ki, tənəzzül etməyə başlayıb.

Niger artıq fransız hərbçilərinin ölkədən çıxarılmasına nail olub. Niger Fransanın əsas uran təchizatçılarından biri, bəlkə də ən vacibi idi. Fransada elektrik enerjisinin istehsalı əsasən atom elektrik stansiyalarından əldə edilir. Bu, tək xarici siyasət itkisi deyil, həm də iqtisadi enişə səbəb ola biləcək güclü faktordur. İndi fransızlar uranı Orta Asiyada axtarsalar da, onun Avropaya daşınma yollarının Azərbaycandan keçdiyini unudurlar...




## POSTMÜSTƏMLƏKƏ TƏNƏZZÜLÜ

Fransanın tanınmış iqtisadçısı Anton Lyubiç hesab edir ki, EKOVAS üzvləri Burkina-Faso, Mali və Nigerin təşkilatdan çıxmaq qərarları fransız neokolonizminin tənəzzülünün başlanğıcıdır: "Fransanın postmüstəmləkə iflasını açıq elan etmək olar".

EKOVAS-ın nizamnaməsinə görə, əgər hər hansı üzv təşkilatı tərk edirsə, bunu bir il öncə elan etməlidir. Eyni zamanda, bu il ərzində təşkilat qarşısında vəzifə və öhdəliklərini tam olaraq həyata keçirməlidir. Şübhə yoxdur ki, bu istək qarşıdakı il ərzində təşkilat daxilində "yoluxucu" effekt oyadacaq və Fransanın itkiləri bununla bitməyəcək. Fransa ötən yay "qiyamçı" Nigeri cəzalandıracaq deyə sinəsinə döyürdü. Nəticə heç də ürəkaçan olmadı: Nigerin ardınca digər Afrika ölkələrində də anti-Paris əhval-ruhiyyəsi güclənməyə başladı.

## FRANSA GEDİR, ÇİN, RUSİYA VƏ TÜRKİYƏ GƏLİR

Makron Qabon, Mali və Kot-dİvuardakı hərbi kontingentini ixtisar etmək qərarını Fransaya edilən güclü təzyiq altında qəbul edib. Heç bir imperiya müstəmləkələrini könüllü tərk etmək istəməz. Bu ölkələr Parisin Qərbi Afrikadakı əsas istehkamlarıdır. Buranın əldən verilməsi Atlantik okeanı sahillərinin itirilməsi deməkdir. Bu, açıq diplomatik zəiflikdir, çünki Makron hərbi mövcudluq ixtisarını ABŞ-yə şəriklik təklifi ilə kompensasiya etmək istəyir. Bu, həm də onun göstəricisidir ki, Fransa bu ölkələri tək daxili etirazlar səbəbindən deyil, həm də geosiyasi rəqiblərin təzyiqləri ilə tərk etmək məcburiyyətində qalıb. Afrikada ənənəvi oyunçulardan biri Rusiyadır. Son illər ərzində burada daha iki geosiyasi oyunçu güclənməyə başlayıb: Çin və Türkiyə.




## CASUS RÜSVAYÇILIĞI

Fransanın xarici siyasət uğursuzluqları tək müstəmləkə oyanışları deyil, həm də diplomatik eqoizm və yol verilən qeyri-ciddiliyin nəticəsidir.

Fransanın Cənubi Qafqazdakı davranışı, Ermənistanda Rusiya ilə üz-üzə gəlməsi, bölgənin ən böyük, varlı və nüfuzlu dövləti olan qalib Azərbaycanla açıq düşmənlik etməsi göründüyü kimi, Makrona baha başa gəlir. Fransanın Azərbaycanda casus iflası bu gün dünya mediasının diqqətindədir. Parisin casusluq niyyətlərinin Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən deşifrə edilməsi mövcud potensialından ağır yük qaldırmaq eşqinə düşən Makron üçün xarici siyasət qalmaqalıdır. Onun XİN rəhbərliyində etdiyi dəyişikliklər isə "qaşı düzəltmək əvəzinə vurub gözü çıxarmaq"dır.

Bakıda casusluğa görə tutulan Fransa vətəndaşı Martin Ryanın həbsi Fransanın nəinki xariciləri, hətta öz vətəndaşlarını primitiv ambisiyalarının qurbanı etməkdən çəkinmədiyinin göstəricisidir. Bu diplomatik biabırçılığı Fransanın erməniəsilli jurnalisti Leo Nikolyan araşdırıb və daha sonra problem ölkə mediasının ən çox müzakirə etdiyi mövzuya çevrilib. Nikolyan müəyyən edib ki, M.Ryan Bakıda uğur axtaran biznesmen olub və Azərbaycandakı əlverişli iqtisadi mühitdən yararlanaraq öz işini qura bilib. Bunu görən Fransa xüsusi xidməti ondan öz maraqları üçün casus kimi istifadə etmək qərarına gəlib. Ryan əvvəl razılaşmayıb, ancaq Fransadakı valideynlərinə təzyiq etmək hədələrindən sonra təslim olub. Nəticə isə məlumdur: iş adamı həbsdədir, diplomatik fəaliyyət altında pərdələnən iki səfirlik əməkdaşı isə Azərbaycandan qovulub.

Nikolyan həmin jurnalistdir ki, Fransanın Ermənistanda düşdüyü daha bir qalmaqalı ictimailəşdirib. "Azərbaycanla sərhədləri monitorinq" adı altında yerləşdirilmiş fransız casus şəbəkəsinin iki təmsilçisi 8-ci sinif şagirdi olan erməni qızı zorlamaq üstündə təcili şəkildə Ermənistandan çıxarılıblar. Təbii ki, qalmaqalın üstünün açılmasında Fransa kimi müttəfiq olan Paşinyan Ermənistanı da maraqlı olmadığından təxliyə maksimum şəkildə məxfi həyata keçirilib. Ancaq qız və qızın ailəsini necə susdurmalı? Fransa tərəfi orijinal çıxış yolu tapıb: uşağın könlünü almaq üçün onu Paris Disneylendinə dəvət ediblər. Bax, belə. Fransanın xarici siyasəti kimi casusluq izlərini itirmə cəhdləri də qeyri-ciddidir...

# ABŞ-nin “AXİLLES DABANI”



Qreq Ebbott

Texasla Ağ ev arasında gərginlik artır. Ştatın müstəqillik arzusuna düşə biləcəyi ilə bağlı gözləntilər də var. Dünyanın müxtəlif nöqtələrində separatizmi dəstəkləyən ABŞ indi özü separatizm təhlükəsi ilə üz-üzədir.



AZƏR NURİYEV
azernuriyev@kaspi.az

ABŞ ciddi daxili problemlə üzləşib. Ölkə telekanallarının bütün xəbər buraxılışları və ən çox oxunan nəşrlərinin gündəmi yalnız bir xəbərdir - Texasda baş verənlər.

Ölkənin aparıcı ştatlarından biri dövlət sərhədlərini miqrantların kütləvi axınından qorumaq üçün müstəqil tədbirlər görməyə cəsarət edib. Əksəriyyət hesab edir ki, Birləşmiş Ştatlar bununla əlaqədar tarixinin ən problemli günlərini yaşayır. Hətta yerli media baş verənləri “kiçik vətəndaş müharibəsi” kimi də xarakterizə edib. Texasda separatçı əhval-ruhiyyənin artmasını 160 il əvvəl baş verən vətəndaş müharibəsi ilə eyniləşdirənlər də tapılıb. Məsələ ondadır ki, respublikaçıların üstünlük təşkil etdiyi Texasda miqrasiya problemləri ilə bağlı gərginlik günbəgün artır. Ştatın qubernatoru Qreq Ebbotun qərarı ilə qanunsuz miqrasiyanın qarşısını almaq üçün Meksika ilə sərhədə 50 kilometrlik tikanlı məftildən sədd çəkilib. Bayden administrasiyası da bu qərardan Ali Məhkəməyə şikayət verib. Məhkəmə administrasiyanın xeyrinə qərar çıxarıb və qubernatorun səlahiyyətlərini aşdığını elan edib. Bayden sərhədçilərə tikanlı məftilləri sökmək əmri verib. Bundan sonra Texas qubernatoru ştatın ABŞ-yə xüsusi hüquqlarla daxil olmasını nəzərə alaraq onun işğala məruz qaldığını, problemləri özünün həll edəcəyini deyib. O bildirib ki, Texas mərkəzi hakimiyyətlə münaqişəyə hazırdır. Artıq ştatın rəhbərliyi qeyri-qanuni miqrantların öz ərazilərindən köçürülməsi proqramının bir hissəsi kimi 102 mindən çox insanı digər ştatlara daşıyıb.



## 20-YƏ YAXIN ŞTAT TEXASA DƏSTƏK VERİB

Prezident seçkiləri ərəfəsində bu hadisə ölkə daxilində ciddi problemə səbəb olub. Bu, əlbəttə, hazırda müxalif düşərgəni təmsil edən respublikaçıların əlini gücləndirir. Keçmiş prezident, respublikaçıların əsas siması hesab olunan Donald Tramp bildirib ki, ABŞ sərhədindəki vəziyyət kütləvi qırğın silahına çevrilib. O, bunu tarixin ən pis durumu kimi qiymətləndirib. Ölkənin 20-yə yaxın ştatı da Texasa dəstək verib.

ABŞ-də çoxları hesab edir ki, baş verənlər ölkə tarixinin ən böyük böhranıdır. Mümkün ayrılma mövzusu ştatda uzun müddətdir müzakirə olunur və bu baxımdan hesab edilir ki, Texas rəhbərliyi indi belə bir inkişafın beynəlxalq dəstək tapıb-tapmayacağını qiymətləndirməyə çalışır. Bu çağırışlar hətta Böyük Britaniya Brexitinə bənzədilir və Texit də adlandırılır.

### ABŞ-NİN ƏN ZƏİF NÖQTƏSİ

Qeyd edək ki, qalmaqallı Texas ştatı ABŞ-nin ən zəif nöqtəsi, bir növ “Axilles dabanı” hesab edilir. Proseslərin ölkənin parçalanmasına gətirib çıxaracağı bir qədər şübhəli olsa da, artıq ilkin əlamətlər var. Texasda baş verənlər ABŞ üçün domino effekti yarada bilər. Yəni Texasın ardınca Kaliforniya, Alyaska və Havay kimi ştatlar da mərkəzi hakimiyyətin nəzarətindən çıxmaq yolu tuta bilərlər. Bundan başqa, cənub ştatlarının 160 il öncə olduğu kimi, Amerika Konfederativ Dövlətləri adı altında ayrılması ehtimalı da mümkündür.

Texas ABŞ üçün iqtisadi cəhətdən böyük əhəmiyyət kəsb edir. Ştat ölkənin neft hasilatının 40 faizini və 1.9 trilyon dollarlıq dünyanın 9-cu ən böyük iqtisadiyyatını təmsil edir.

Məşhur amerikalı sosioloq Samuel Hantinqton hələ 2000-ci illərin əvvəllərində yazırdı ki, “miqrasiya dalğaları və Amerika xalqlarının “ərimə qazanı”nın içinə düşməsinə görə, XXI əsrin ortalarında Texas da daxil olmaqla ABŞ-nin bütün cənub ştatları Meksikaya, şimal ştatları isə Kanadaya birləşə bilər”.





Co Bayden

## ŞTATLARIN AYRILMAQ HÜQUQU VAR, AMMA...



XIX əsr vətəndaş müharibəsindən sonra ABŞ Ali Məhkəməsi ştatların birtərəfli qaydada İttifaqdan ayrıla bilməyəcəyinə dair qərar verib. Bəs federativ dövlət olan ABŞ-də ştatlar ayrıla bilərmi? Düzdür, ştatların belə bir hüququ var, amma indiyə qədər belə presedent olmayıb. Onu da qeyd edək ki, Texas indiyədək beynəlxalq səviyyədə tanınmış və ABŞ-nin tərkibinə birbaşa ştat kimi qəbul edilmiş ilk və yeganə müstəqil dövlətdir. Birləşmə zamanı Texasa özəl şərtlər təklif edilib. Ştatın bütün torpaqlarının onun xalqına məxsus olduğu xüsusi vurğulanıb.

### NƏ ƏKƏRSƏN, ONU DA BİÇƏRSƏN

Göründüyü kimi, dünyanın müxtəlif yerlərində separatizmi dəstəkləyən ABŞ bu dəfə özü eyni təhlükə qarşısında qalıb. Necə deyərlər, ölkə uzun illərdir başqalarına qazdığı quyuya artıq özü düşmək üzrədir. Prezident seçkiləri öncəsi belə bir vəziyyətin yaranması hazırkı prezident Co Bayden üçün ürəkaçan mənzərə olmasa da, əsas rəqibi Trampın mövqeyinin güclənməsinə səbəb olacaq. Xatırladaq ki, sayca 60-cı olacaq prezident və paralel olaraq ABŞ Senatı və Konqresinə seçkilər noyabrın 5-də keçiriləcək. Məlumdur ki, ABŞ uzun illər Azərbaycanda mövcud olmuş erməni separatçı rejimi dəstəkləyən ölkələrdən biri olub, hətta onlara yüksək kürsülərdən danışmaq, fikir söyləmək imkanı verib. Bir ovuc ermənin Qarabağda öz müqəddəratını təyin etmək hüququndan tez-tez dəm vuran rəsmi Vaşinqtonun indi belə mənzərə qarşısında özünü necə aparacağı çox maraqlı olacaq.



# BORC GİRDABINDA BOĞULAN ERMƏNİSTAN

## ÖLKƏDƏ YOXSUL ƏHALİNİN SAYI SÜRƏTLƏ ARTIR

# Paşinyan hökumətinin maliyyə fırıldağı

Son illər Ermənistanın dövlət borcu kəskin şəkildə artıb. Tək bu il xarici borclara xidmətlə bağlı xərclərin iki milyard dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu rəqəm ötən illə müqayisədə 500 milyon dollar çoxdur.

FUAD ABASOĞLU

Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn Nikol Paşinyan müxtəlif sahələrdə, xüsusən də sosial sektorda yeni proqramlar vəd etsə də, fiaskoya uğrayıb. Ölkədə yoxsulluq və dövlət borcu hər il artan templə inkişaf edir, əhalinin sosial durumu isə günü-gündən ağırlaşır. Hakim partiyanın vəd etdiyi heç bir layihə uğur qazana bilmir.

### PUÇ OLAN ARZULAR

Ermənistan statistika idarəsinin məlumatlarına görə, 2023-cü ildə ötən illərlə müqayisədə ölkədə yoxsulluq indeksində kəskin artım müşahidə edilib. Əgər 2018-ci ildə yoxsulluq səviyyəsi 23.5 faiz idisə, keçən ilin nəticələrinə görə bu göstərici artıq 24.8 faizə çatıb. Baş nazirin orta aylıq əməkhaqqının artması ilə bağlı arzuları da çürük çıxıb. Məlum olub ki, sadəcə bir-iki sektorda əməkhaqqının ciddi artımı ümumi tendensiyaya təsir edib, minimum əməkhaqqında isə artım müşahidə edilməyib. İnflyasiya aşağı gəlirli insanların real gəlirlərini də azaldıb.

### İNFLYASİYA ARTMAQDA DAVAM EDİR

Paşinyan hökuməti beş ildir ki, bütün seçkiöncəsi platformalarda əhalinin vəziyyətinin yaxşı olacağına söz versə də, tam əksi müşahidə edilir. Məsələn, Ermənistanda bu gün əhalinin 60 faizindən çoxu faktiki olaraq adambaşına düşən minimum istehlak səbətinin dəyərindən də az qazanır. Hazırda Ermənistanda minimum əməkhaqqı 75 min dramdır. Minimum yaşayış səbəti isə 80 min dram təşkil edir. İnflyasiya isə artmaqda davam edir, orta pensiya həddi minimum istehlak səbəti dəyərindən iki dəfə azdır.

Paşinyan cari il yanvarın əvvəlində hökumət iclasında pensiyaları iki dəfə artıracağına söz verib. Amma hökumətin bunu hansı üsulla yerinə yetirəcəyi məlum deyil. Ermənistanın hazırkı durumunda bu, artıq pul çapı və yüksək inflyasiya hesabına həll edilə bilər. Çünki real gəlirlər azalır, sosial cəhətdən imkansız olanlar daha da kasıblayır. Kasıblayanların sırasına aztəminatlılar, işləyən yoxsullar, yoxsulluğa görə müavinət alanlar və pensiyaçılar daxildir.



Əslində yoxsulluğu aradan qaldırmağın əsas üsullarından biri iş yerlərinin yaradılmasıdır. Qeyd etmək yerinə düşər ki, Ermənistan iqtisadiyyatında xarici faktorun yaratdığı müvəqqəti iqtisadi artım var və bunun nəticəsində xidmət, ticarət sahələrində tələbin yaratdığı iş yeri imkanları zaman-zaman ortaya çıxır. Fəqət, bu davamlı olmadığı üçün sabun köpüyü kimi şişərək partlayır. Hazırda xarici faktorun azalması artım tempini zəiflədir və açılan iş yerləri də bağlanır.

### REAL SEKTOR ÖLÜMCÜL VƏZİYYƏTDƏDİR

Ermənistan iqtisadiyyatında real sektorun ölümcül vəziyyətdə olduğu da göz önündədir. Kənd təsərrüfatı və sənaye sahələrində artım nəzərə çarpmır. Bu da öz növbəsində sosial vəziyyətə təsir edir. Bu sahələri təşviq etmək üçün isə müxtəlif vergi güzəştləri, müəyyən proqramlar həyata keçirilməlidir. Amma bu gün şahidi oluruq ki, vergi güzəştləri ləğv edilir, vergi yükü artır. 2024-cü il üçün İqtisadiyyat Nazirliyi 7 faizlik iqtisadi artım proqnozlaşdırıb. Görünən odur ki, bu, sadəcə bir utopiyadır və gəlir-xərc nisbətində erməni iqtisadiyyatında ciddi çətinliklər olacaq.

### ARTAN DÖVLƏT BORCU

Son illər Ermənistanın dövlət borcu da hökumətin götürdüyü böyük borclar səbəbindən kəskin şəkildə artıb. Eyni zamanda, xarici borclara görə xidmətlə bağlı xərclər də kəskin şəkildə artmaqda davam edir. Tək bu il xarici borclara xidmətlə bağlı xərclərin iki milyard dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu rəqəm ötən illə müqayisədə 500 milyon dollar çoxdur. Ehtimal edilir ki, cari ildə erməni dövlətinin borcu 655 milyard dram artaraq 5.3 trilyon drama, yəni 13 milyard dollara çatacaq. Son beş il ərzində mövcud hakimiyyət beş milyard dollar borc götürüb.

## XARİCİ KREDİTLƏR BAHALI DAXİLİ BORCLA ƏVƏZLƏNİB

Borcu ödəmək üçün əvvəllər valyuta borcları ancaq xaricdən götürülür, beynəlxalq maliyyə təşkilatlarından kreditlər alınırdı. Son illər isə daxili bazardan həm dramla, həm də xarici valyuta ilə borclar alınır. Bunun üçün xarici valyuta istiqrazları buraxılır və bu da sonradan valyuta borcuna çevrilir. Bu tendensiya xaricdən alınan kreditdən baha başa gəlir. Ehtimal edilir ki, bunun səbəbi xaricdən ucuz qiymətə kredit verənin olmamasıdır. Nəticədə Paşinyan hökuməti daha yüksək faizlə daxildən pul tədarük edir. Artıq daxili bazardan alınan valyuta 500 milyon dollar həddini ötüb. Bu məbləğ üçün faizlər tək cari ildə 72 milyon dollar təşkil edəcək.

Ümumilikdə valyuta borclarına xidmət üçün dövlət büdcəsindən 716 milyon dollar ödəniləcək. 1.2 milyard dollar isə daxili borcun ödənilməsi üçün nəzərdə tutulub.

Yuxarıda sadalananlardan göründüyü kimi, Paşinyan hökuməti ölkəni borc bataqlığına sürükləyib. Ucuz xarici kreditlər bahalı daxili borcla əvəz edilib. Son üç ildə dövlət borcunun orta faiz dərəcəsi 2.7 faiz bəndi artım göstərib. Bu bəndin 7.2 faizə çatacağı proqnozlaşdırılır. Büdcənin talanması, yerli icra hakimiyyəti orqanları və müəyyən iri ranqlı məmurlar tərəfindən həzm-rabedən keçirilməsi, xalqın günü-gündən yoxsullaşması fonunda Paşinyanın ağızdolusu sosial islahatlardan, proqramlardan danışması, pensiyaları iki dəfə artıracağı barədə vədləri artıq gülünc görünür.



UĞUR Kaspi ŞƏNBƏ 2024 9

KARYERASI ÜÇÜN NƏINKI RAYONDAN ŞƏHƏRƏ KÖÇÜB, SƏRHƏDLƏR AŞIB, HAZIRDA DÜNYANIN MƏŞHUR ŞIRKƏTINDƏ ÇALIŞIR

# “HƏR GÜN 10 YERDƏN RƏDD CAVABI ALIRDIM”

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Həcər Hidayətova:** “Beş il sonranı fikirləşərək hərəkət edirəm. Məsələn, bu dəqiqə ev və ya maşın alacaq qədər pulum varsa, ev alaram. Çünki maşının beş il sonra qiyməti aşağı düşəcək, amma evin qiyməti qalxacaq”.



Şəkidə başlayan həyatı Avropaya qədər uzanıb. Deyir ki, məktəbdə oxuyarkən Bakıya gəlmək onun üçün önəmli addım idi. Amma karyerasının ardınca nəinki rayondan şəhərə köçüb, sərhədlər aşıb. Hazırda dünyanın aparıcı ölkələrində zavodlar inşa edən şirkətin üzvüdür.

Müsahibimiz ABŞ-Pentair şirkətində neft-kimya, bioqaz sənayesi istiqamətində proses mühəndisi Həcər Hidayətovadır. Həcər şirkətin Almaniya və Niderland ofisində fəaliyyət göstərir.

Şəkidə anadan olub. Şəki şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra 609 balla Bakı Ali Neft Məktəbində kimya mühəndisliyi ixtisasına qəbul olur. Daha sonra həmin universitetin neft-qaz texnologiyaları ixtisasında magistratura təhsili alır. Həcəri əksər Avropada işləyənlərdən fərqləndirən cəhət Azərbaycanda təhsil alarkən Almaniyadan iş təklifi almasıdır. O, hazırda dünya ölkələrinin müraciət etdiyi şirkətdə karyerasını davam etdirməkdədir.

## “XARİCDƏ YAŞAMAQ MƏNİM ÜÇÜN MÜMKÜNSÜZ İDİ”

**● Həcər xanım, Şəkidə təhsil alarkən Avropada işləməyi hədəfləyirdinizmi?**

● Təsəvvür belə etmirdim. Əgər belə hədəfim olsa idi, magistratura təhsili üçün xarici seçər, müraciət edə bilərdim. Amma xarici ölkədə yaşamaq mənim üçün mümkünsüz idi. Hətta Bakıya köçüb yaşamağı belə böyük addım, önəmli hadisə hesab edirdim.

**● Yəqin ki, Şəkidən Bakıya gəlməyin belə, böyük addım hesab olunduğu ailəyə Avropada yaşamağı qəbul etdirmək çətin oldu.**

● Bu, onlarda şok effekti yaratdı. Bakıya gəldikdə, işlərini mənə uyğunlaşdırıb, onlar da mənimlə köçmüşdülər. Avropaya köçməyimi qəbul etmək onlar üçün indi də çətindir. Çünki məsafə çoxdur və gec-gec görüşürük. Ona görə də çalışıram ki, Azərbaycana tez-tez gəlim, ailəmlə vaxt keçirim. Ailəm darıxsa da, mənimlə fəxr etdiklərini daim səsləndirir, dəstəkləyirlər.

## “İŞ TƏKLİFİNİ “LİNKEDİN”DƏN ALDIM”

**● Azərbaycan təhsili ilə bağlı fikirlər birmənalı deyil. Hətta “Avropada məşhur şirkətlərdə işləmək istəyirsənsə, mütləq xaricdə təhsil almalısan”, - deyə fikirlər var. Siz bu tabunu necə qırdınız?**

● Karyeramda Azərbaycandakı təhsilimin və fəaliyyətimin rolu danılmazdır. Universitetə qəbul olarkən ingilis dili səviyyəm ən aşağı olaraq qeyd edildi. Dili öyrənməyə başlayanda çətinlik çəkirdim. Təhsil aldığım universitetdəki mühit, ətrafımda hər kəsin bilgili, savadlı olması məni rəqabətə sövq edir, daha da həvəsləndirirdi. Beş il sonra məzun oldum. Həmçinin, universitetimiz Böyük Britaniyanın Heriot-Vatt Universiteti ilə əməkdaşlıq edirdi. İmtahanlarımızı o universitetə verirdik, kitablarımız, dərs vəsaitlərimiz oradan gəlirdi. Məzun olduqda, oranın da diplomunu əldə etdim. Magistratura təhsili də həmin universitetlə əməkdaşlıq proqramı çərçivəsində hazırlanmışdı. Təhsil alarkən auditoriyamıza xarici şirkətlərin nümayəndələri gəlir, tələbələrlə maraqlanırdı. Bizi əvvəlcə təcrübəyə dəvət edir, sonra işə qəbul edirdilər. Məsələn, İtaliya şirkəti tələbələr arasında apardığı müsahibələrdən sonra dörd nəfəri seçdi. Onlardan biri mən idim. Bakı ofisində doqquz aylıq inkişaf proqramı çərçivəsində təlim keçdim. Sonra bu şirkətdə kiçik layihə mühəndisi kimi işə başladım. Yəni Bakıda yaşayarkən artıq xarici şirkətlərlə əməkdaşlığa başlamışdım.

**● Bəs nə üçün İtaliya deyil, Almaniyanı seçdiniz?**

● Bu qərarı pandemiyadan sonra verdim. 2020-ci ildə işlərimiz azaldı. Bu boşluqdan istifadə edərək alman dilini öyrənməyə qərar verdim. Həm ixtisaslı kadr idim, həm də alman dilini bilirdim. Düşündüm ki, Almaniyada işləmək şansım var. Azərbaycanda yaşaya-yaşaya “Linkedin” sosial şəbəkəsində işlərə müraciət etməyə başladım. O qədər imtina aldım, amma hər dəfə təkrar müraciət etdim. Beş ay ərzində minlərlə müraciətim olub. Bu müddətdə bir çox müsahibələrdən keçdim, amma Almaniyada Avropa İttifaqı vətəndaşı olmayanlar üçün viza təsdiqi çətin olduğundan şirkətlərin əksəriyyəti geridönüş etmirdi. Gözləmədiyim bir vaxtda iş təklifi aldım. “Linkedin” profilimi bəyənmişdilər. Bundan sonra “Pentair”də iş həyatım başladı. Şirkət ABŞ ilə yanaşı, Danimarka, Niderland, Almaniyada fəaliyyət göstərir.

## “SOSİAL ŞƏBƏKƏLƏRDƏN DÜZGÜN İSTİFADƏ ETDİKDƏ, FAYDALARI İNANILMAZDIR”

**● “Pentair”də işiniz nədən ibarətdir?**

● “Pentair” karbon qazını təmizləyərək qiymətli məhsullara çevirir. Dünya ölkələri üçün layihələr edirik. Hətta Danimarkadakı şirkətimiz bu yaxınlarda Azərbaycan üçün də layihə etməyi planlaşdırır. Biz burada daha çox təmiz karbon qazının alınması üçün fəaliyyət göstərir, təmiz yanacaq dediyimiz “Biogaz” üçün zavodlar inşa edirik. Mən də bu zavodların proses üzrə dizayn mühəndisiyəm. Qida sənayesi üçün daha çox qazlı içkilər və pivə şirkətləri üçün karbon qazı istehsal edən zavodlar tikirik. Kimya sənayesi üçün isə sənayedə istifadə olunan təmiz karbon qazı alınması üçün zavodlar inşa edirik. Bundan əlavə, fermalarda tullantıların yenidən istifadə olunması zamanında alınan çirkli qazların təmizlənməsi üçün dəstək oluruq. Bu qazlar təmizlənərək yanacaq kimi fermalarda, kimyəvi zavodlarda, yaxud çox böyük layihədirsə, məişətdə istifadə oluna bilər.

**● Bəzi insanlar sosial şəbəkələrdən istifadəni vaxt itkisi hesab edirlər. Sizin Avropa macəranız isə məhz bu şəbəkələrlə başlayıb. Sizcə, bu platformalardan necə istifadə edilməlidir?**

● Sosial şəbəkələrdən hansı məqsədlər üçün istifadə etmək əhəmiyyətlidir. Mən vaxt itkisi kimi dəyərləndirmirəm. Sosial şəbəkələr vasitəsilə çox dəyərli insanlar tanıyıb, dostluqlar qurmuşam. Təəssüflər olsun ki, Azərbaycanda “Linkedin”dən daha çox göstəriş üçün istifadə olunur. Amma daha yaxşı əlaqələr qurmaq, iş axtarmaq, karyera üçün ideal məkandır. Xaricdə iş axtarmağa başlayanda profilimi hazırladım. Detallı şəkildə nə işlər gördüyümü yazdım, diplomlarımı, sertifikatlarımı əlavə etdim. İndi də haradan sertifikat alsam, çalışıram ki, paylaşım. Məqsəd odur ki, bağlantımda olan şəxslər hansı biliyə malik olduğumu görsünlər və buna uyğun iş təklifləri alım. Bəzən görürəm ki, Azərbaycan “Linkedin”ində boş kontentli postlar paylaşılır, bu, məqsədəuyğun deyil. Sosial şəbəkələrdən düzgün istifadə etdikdə, faydaları inanılmazdır.

## “GƏLƏCƏYƏ DAHA YAXŞI İNVESTİSİYA QOYMAQ ÜÇÜN BU İXTİSASI SEÇDİM”

**● Bəzi peşələr cinsə görə fərqləndirilir. Mühəndislik də, xüsusilə neft-qaz sahəsi üzrə bəzi bölgələrdə kişi sənəti kimi qiymətləndirilir. Sizdə bu sahəyə maraq necə yarandı?**

● Əslində, ixtisas seçimimlə bağlı strateji addım atdım. Düzünü desəm, bu istəyə bağlı deyil, gələcəyə bağlı verilmiş qərar idi. Azərbaycan neft ölkəsidir və bu sahə ən çox inkişaf etmiş və gəlirli sahələrdən biridir. Topladığım balla gələcəyə daha yaxşı investisiya qoymaq üçün bu ixtisası seçdim. Bu kimi peşələrin cinsə görə fərqləndirilməsi ilə dəfələrlə rastlaşmışam.

> “Sosial şəbəkələrdən hansı məqsədlər üçün istifadə etmək əhəmiyyətlidir. Mən vaxt itkisi kimi dəyərləndirmirəm. Sosial şəbəkələr vasitəsilə çox dəyərli insanlar tanıyıb, dostluqlar qurmuşam.”

**● Bəs strateji addımınızın hazırda əmək bazarındakı rolunu necə qiymətləndirirsiniz? Sizcə, yetərincə dəyər görürmü?**

● Azərbaycanda son illərdə inkişaf etməyə başladığını düşünürəm. Dünyada isə bu sahə daha fərqli istiqamətdə irəliləyir. Məsələn, Avropada ətraf mühitə uyğun təbii qazların alınması, yaxşı kimyəvi məhsulların hazırlanması istiqamətində çox işlər görülüb. Azərbaycan neft-qaz ölkəsi olduğu üçün mühəndislik də məhz bu istiqamətdə inkişaf edir. Daha çox neft üzrə mühəndislər yetişdirilir, başqa sahələrə yönəlmir. Avropada neft yoxdur, buna görə fərqli - boya sahəsi, bioqaz, karbon, sulfur qazları sahələrində inkişaf edir. Hazırda bunlara dünyada daha çox tələb var.





## “HƏR GÜN OFİSDƏ AZƏRBAYCANIN, YAXUD ŞƏHƏRİNİN ADI ÇƏKİLƏCƏK”

**● Həcər xanım, Şəkidə böyüyən qızın uzaq ölkəyə təkbaşına köçməsinin və fərqli mühitdə işləməsinin çətinlikləri nədir?**

● Çox adam düşünür ki, əgər ölkəni tərk edib Avropaya getdinsə, deməli, hər şey əladır. Halbuki elə deyil. Burada hər şeyi təkbaşına etməlisiniz. Mədəniyyətləri də tam fərqlidir. Məsələn, maşınım yoxdur, bizdəki kimi taksilərdən istifadə rahat deyil. Yaxud kömək lazım olduqda sənə yardım əlini uzadacaq insan yoxdur. Evə köçürsünüzsə, hər şeyinizi özünüz almalı, daşımalısınız. Sözün əsl mənasında təksiniz. Mühit fərqlidir, heç kimi tanımırsınız. Psixoloji olaraq ilk vaxtlar tək yaşamaq çox çətin olur. İnsan dostları, ailəsi, evi, vətəni üçün çox darıxır. Bütün çətinlikləri gözə almaq lazımdır. Düzdür, maaşları bizdən yaxşıdır, amma çox qazanmaqla bərabər, o qazanca uyğun da xərcləməyə məcbursan. Maddi olaraq burada yaşamaq asan deyil. Məsələn, texnoloji alətlərin qiymətlərini müqayisə edirik. Amma nəqliyyata, kirayəyə gəldikdə, Azərbaycandakı qiymətlərdən qat-qat bahadır. Yaxşı maddi vəziyyəti olmadan gəlirsənsə, bu, çox böyük riskdir. Mən işi, gəlirləri zəmanət altına aldıqdan sonra köçməyi məsləhət görərdim. Müsbət tərəfləri isə iş mühitindəki sərbəstlikdir. Avropadakı iş mühiti daha rahatdır. İstədiyini deyə biləcəyin, müdirlə rahat münasibət qurula bilən mühitdir. Üst məqamlarla görüşmək, şikayətini bildirmək çox asandır. Azərbaycandakı şirkətlərin əksəriyyətində bu mümkünsüzdür.

**● Dediniz ki, işlədiyiniz ölkələrin içində Azərbaycan da var. Maraqlıdır, digər ölkələrdən gələn layihə ilə vətənlə bağlı layihəni işləmək arasında hansı fərqlər var? Necə hiss edirsiniz?**

● Mən Azərbaycan layihəsini gördükdə çox sevinmişdim. Çünki biz layihələri ölkənin və ya şəhərin adına görə adlandırırıq. Bir layihənin adı gündə 10 dəfə istifadə olunur və hamı tərəfindən tanınır. Hər gün ofisdə Azərbaycanın, yaxud şəhərinin adı çəkiləcək. Bu, məni xoşbəxt edir.



## “LƏHCƏMDƏN HƏR YERDƏ İSTİFADƏ EDİRƏM”

**● Rayonlarda yaşayan şagirdlərin bəziləri üçün xaricdə təhsil almaq mümkünsüzdür. Xüsusilə, pulun yoxdursa, onlara görə bu, ancaq xəyal ola bilər? Həqiqətən belədirmi?**

● Mənim kimi çalışaraq əldə etmək olar. Təhsilimə, işimə indiyə qədər pul xərcləməmişəm. Dövlət layihələri, proqramları çərçivəsində hər fürsətdən yararlanıb, müsahibələrə qatılmışam. Universiteti də pulsuz oxudum, işlədiyim şirkətə də öz biliyimlə seçildim. Təbii ki, ailəmin dəstəyi olub, onlar mənim üçün kirayə ev tutub, təhsil aldığım müddətdə maddi yardım ediblər. Mən də onlara dəstək olmağa çalışmışam. Hətta universitetdə oxuduğum vaxt son iki ildə kursda riyaziyyat müəllimi işləyirdim ki, xərclərimi çıxarım. Mənə görə, uğurlu karyerada ilk olaraq savad əldə etmək, ikinci də sosial həyatda aktiv olmaq lazımdır. Ən əsası, özünə yatırım etməlisən. Daha çox insanlarla tanış olmalı, qarşına hədəf qoyaraq o hədəfə doğru irəliləməlisən. Almaniyaya gəlmək istəyəndə mindən çox yerə müraciət etmişdim. Gündə 10 yerdən rədd cavabı alırdım, amma bu, məni məqsədimdən çəkindirmirdi. Təsdiq alana qədər müraciət etdim. Rayon, kənd, şəhər fərq etmir, əzmin varsa, istədiyin hər şeyə nail ola bilərsən.

**● İnsan özünə necə yatırım etməlidir? İnkişaf üçün sizcə, ən vacib nüanslar nədir?**

● Əgər üç saat boş vaxtım varsa, iki saatını özümün inkişafıma, bir saatını əyləncəyə sərf edirəm. Bu, artıq məndə adətə çevrilib. Boş vaxtımda nə isə oxumayanda, öyrənməyəndə vicdan əzabı çəkirəm. Özümə yatırım etməyəndə, özümü günahkar hiss edirəm. Bunun yaxşı hal olmadığını bilirəm, amma artıq vərdişdir. Beş il sonranı fikirləşərək hərəkət edirəm. Məsələn, bu dəqiqə ev və ya maşın alacaq qədər pulum varsa, ev alaram. Çünki maşının beş il sonra qiyməti aşağı düşəcək, amma evin qiyməti qalxacaq. Özünə yatırım edən insan hər addımda gələcəyi düşünərək hərəkət etməlidir. Məsələn, “şoppinq” etmək, dil öyrənmək seçimi arasında qaldıqda, düşünmək lazımdır ki, bir kofta alırsan, üç ay geyinirsən, bəyənmirsən və ya keyfiyyəti ölür, verdiyin pulla birlikdə zibil qabına gedir. Amma pulu dil öyrənməyə yatırdıqda, beş il sonra mütləq faydasını görürsən. Yatırımı balanslı etmək lazımdır. Bütün pulu geyimə yox, yarısını dilə, yarısını geyimə bölmək lazımdır. Mən universitet vaxtımda daha çox maddi olaraq ailəmə bağlı olduğumdan bunlara diqqət edirdim ki, ailəmi maddi gücə salmayım. Ailəm mənə pul xərcləyəndə bunu ancaq biliyimə sərf edirdim.

**● İngilis, alman, holland dilini öyrənmisiniz. Bunlar sizə şirin Şəki ləhcəsini unutdururmu? Ümumiyyətlə, xarici ölkədə ləhcəniz üçün darıxırsınızmı?**

● Ləhcəmdən hər yerdə istifadə edirəm. Biz ailə arasında həmişə Şəki ləhcəsində danışırıq. Nə qədər dil öyrənsəm də, ləhcəmi unutmaram. Bütün “WhatsApp” mesajlarım hamısı Şəki ləhcəsindədir (gülür - A.Ə.). Bakıda ləhcəmizdən ancaq ailə daxilində istifadə edirdim. Almaniyada, Niderlandda isə insanlar anlamadığı üçün telefonla da tam sərbəst danışıram (gülür - A.Ə).

*Təhsilimə, işimə indiyə qədər pul xərcləməmişəm. Dövlət layihələri, proqramları çərçivəsində hər fürsətdən yararlanıb, müsahibələrə qatılmışam. Universiteti də pulsuz oxudum, işlədiyim şirkətə də öz biliyimlə seçildim.*

# İSTEHSALI AZALIB, QİYMƏTİ ARTIB




**Statistikaya görə, qızıl istehsalımızda azalma mövcuddur. Ekspertlər düşünürlər ki, işğaldan azad olunmuş ərazilərimizdəki qızıl mədənləri fəaliyyətə başladıqda problem aradan qalxacaq.**



**ZƏRİF SALMANLI**
zarifsalmanli@kaspi.az

Ölkələrin iqtisadi inkişaf, maliyyə dayanıqlığı göstəricilərindən biri də qızıl istehsalı və ya ehtiyatının həcmidir. Azərbaycanda da qızıl mədənləri mövcuddur. Həmin mədənlərdən hasil edilən qızılın miqdarı müəyyən dövrlər üzrə dəyişkəndir. Hazırkı statistika isə azalan istiqamətdədir. Dövlət Statistika Komitəsi xəbər verir ki, 2023-cü ildə Azərbaycanda 2 min 614 kiloqram qızıl hasil edilib. Bu rəqəmlər 2022-ci ilin göstəricilərindən 17,7 faiz azdır. Bəs hasilatın azalmasına səbəb nədir? İşğaldan azad olunmuş ərazilərimizdəki qızıl mədənlərində hasilat prosesi başlayıbmı?




**Foto:** Firudin Səlimov/Global Media Group

### BU SEKTOR AZƏRBAYCAN ÜÇÜN YENİDİR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov dedi ki, hasilatın artırılması üçün yüksək texnologiyaların cəlb edilməsi lazımdır: "Bütün hallarda nəzərə almalıyıq ki, bu sektor Azərbaycan üçün yenidir. Ona görə də, mütəmadi olaraq illik göstəricilərin dəyişməsini müşahidə edə bilirik. Bu da məhz həmin sektorun yeni olması və daha çox texnologiya tələb etməsi ilə bağlıdır. Amma nəzərə almalıyıq ki, Zəngilanda və Kəlbəcərdə ehtiyatlarımız kifayət qədər böyükdür. İşğaldan azad edilən ərazilərimizdəki ehtiyatlarımızın böyük olması qızıl hasilatının artırılmasına imkan yaradacaq. Növbəti illərdə Azərbaycanda qızıl hasilatının artacağı gözlənilir. Çünki işğaldan azad olunmuş ərazilərimizdə daha intensiv şəkildə qızıl hasilatı mümkündür".

## Zinət əşyaları bahalaşacaq

**Sədrin sözlərinə görə, əvvəllər bazarda qramı maksimum 62 dollar olan xam qızılın qiyməti indi 66 dollara qalxıb: "Qiymətlərin yüksəlməsinə hasilat təsir etmir. Qiymətli metalların birja qiymətində artım müşahidə edilərsə, o zaman qiymətlərdə artım ola bilər. Bu gün qiymətlərdəki artımı müşahidə edirik. 999 əyarlı bir qram xam qızılın qiyməti 65-66 dollar civarındadır. Halbuki uzun müddət 58-60 dollar civarında idi. Bəzi hallarda 62 dollara qədər qalxırdı. Amma son bir neçə aydır stabil olaraq 65-66 dollar həddindədir. Bu da zərgərlik məmulatlarının qiymətinin artmasında rol oynayacaq".**

**Məsələ ilə bağlı "AzərGold" QSC-dən bildirildi ki, onların qızıl istehsalında heç bir problem yoxdur. 2023-cü ildə şirkət tərəfindən 63,7 min unsiya qızıl hasil edilib. Bu "AzerGold"un fəaliyyət dövrü ərzində ən yüksək illik göstəricidir: "Beləliklə, qızıl hasilatı plandan 2 %, gümüş hasilatı isə 6 % artıq icra edilib. 2022-ci illə müqayisədə 2023-cü ildə qızıl hasilatında 1,7 min unsiya və ya 3 % artım qeydə alınıb".**

## YATAQLARA YENİDƏN BAXILMASI PLANLAŞDIRILIR

İqtisadçı Elmir Səfərli bildirdi ki, qızıl hasilatımız artırıldıqdan sonra dünya birjalarına da çıxmağımız mümkün olacaq: "Azərbaycanda qızılın istehsalı ən çox Daşkəsən, xüsusən də Qarabağ zonasına düşür. Nəzərdə tutulur ki, gələcəkdə Qarabağ zonasında qızıl hasilatını artırmaq üçün o yataqlara yenidən baxışlar keçirilsin və resursların imkanları araşdırılsın. Gələcəkdə işğaldan azad olunan ərazilərdə də qızıl yataqlarının işlənməsinə başlanılacaq. Başlandıqdan sonra artıq istehsal da artacaq. İstehsal artdıqdan sonra həm yerli tələbatı ödəyə biləcəyik, eyni zamanda dünya birjalarında da qızılla bağlı fəaliyyətlər gerçəkləşdirmək mümkün olacaq".

### QIZILA TƏLƏBAT AZALIR

E.Səfərlinin fikrincə, qızılın qiymətində istehsal faktorları, maya dəyəri önəmlidir. Amma qızılın qiyməti maya dəyərindən asılı olmayaraq dünya birjasında tənzimlənir: "Son dönəmlərdə qızılın qiymətində artımlar müşahidə olunur. 2023-cü ilin sonuna yaxın dünya birjasında qızılın qiyməti ən pik həddə çatıb. Hətta 2024-cü ilin ilk rübündə 2000 dollar həddini görə bilərik. Təbii ki, qiymət yüksəldikcə qızıla olan tələbat da azalır. Qiymət yüksəldikcə insanlar qızıldan yalnız investisiya məqsədilə istifadə edirlər. Tələbat azaldığına görə, qızılın istehsalı da aşağı düşür".




## ZƏRGƏRLİK SƏNAYESİNƏ TƏSİR EDƏCƏKMİ?




Azərbaycan Zərgərlər Assosiasiyasının sədri Toğrul Abbasquliyev qeyd etdi ki, hasilatçılardan xam qızıl əldə edilməsi mümkün deyil deyə, hasilatın azalması zərgərlik sektoruna təsir etməyəcək: "Bəli, əvvəlki dövrlə müqayisədə qızıl hasilatı nisbətən aşağı düşüb. Buna təsir edən müəyyən obyektiv səbəblər var. Amma hasilatın aşağı düşməsinin zərgərlik məmulatlarının istehsalına ciddi təsir etməsi gözlənilmir. Çünki yerli hasilatçılardan çox da böyük həcmdə xam qızıl əldə edilmir. Bu səbəbdən, hasilatın azalmasını zərgərlik sənayesinə təsir edən ciddi amil kimi qəbul etmək olmaz".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 269
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.



# BİR MƏNZİLİN İKİ NƏFƏRƏ SATILMASI DÜYÜNÜ ÇÖZÜLÜR

Mənzil almaq istəyən insanlar üçün yeni qaydalar qüvvəyə minir və vahid platforma yaradılır. Ekspertlər bildirirlər ki, bu sistemdən sonra MTK-lar tərəfindən vətəndaşların aldadılması hallarına son qoyulacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Sənədsiz evlər, tikintisi yarımçıq binalar, bir mənzili müxtəlif şəxslərə satan MTK-lar... Əmlak sektorunda bu problemlərin köklü şəkildə həlli istiqamətində addımların atılmasına başlanılıb. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinin İdarə Heyətinin sədri Nigar Alimova deyib ki, mənzil alan insanların işini asanlaşdırmaq və fırıldaqçılıq hallarının qarşısını almaq üçün vahid portal, reyestr yaradılacaq. Bununla bağlı Prezident İlham Əliyev tərəfindən fərman da imzalanıb. Vahid sistemin yaradılması ilə bağlı ekspertlərin gözləntiləri nələrdir?

### SON İLLƏRDƏ DƏLƏDUZLUQ HALLARI DAHA DA ARTIB

Əmlakçı Mülkədar Rüstəmov düşünür ki, bu, gecikmiş olsa da, yerində verilmiş qərardır: “Bakı şəhərində yeni tikilən binalardan kifayət qədər şikayətçi insanlar var. Dəfələrlə şahidi olmuşuq ki, bir mənzili bir neçə nəfərə satıblar. Məhkəmələrdə hələ də çəkişmələr davam edir. Bu qərar belə halların qarşısını alacaq. Bu qərarın əsas mahiyyəti ondan ibarətdir ki, dələduzluq hallarının qarşısı alınmış olacaq. Belə dələduzluq hallarını son 3-5 ildə daha çox müşahidə edirik. Abşeron, Xırdalan ərazisində, Nərimanov rayonunda daha da çoxdur. Bir çox MTK sahibləri vətəndaşları aldadırlar. Tikinti şirkətləri bəzən maliyyə sıxıntıları yaşayırlar. Belə fırıldaqlara əl atırlar ki, tikintiyə lazım olan pulu əldə etsinlər. Sonradan vətəndaşa başqa mənzil təklif edərək guya kompensasiya edirlər”.

## HƏR BİNA TİKƏNƏ BU QAYDALAR ŞAMİL EDİLMƏYƏCƏK

M.Rüstəmov dedi ki, ən çox fırıldaqçılıq mənzili tikilməmiş aldıqda olur: “Vətəndaşların əksəriyyəti mənzili binanın bünövrəsi atılanda almağa üstünlük verir. İnsanların 60-70 faizi bünövrədən mənzil alarkən aldadılırlar. Sonrakı satış qiyməti ilə 500-700 manat civarında fərq olur. İnsanlar sevinirlər ki, ucuz qiymətə mənzil sahibi ola biləcəklər. Amma bina tikildikdən sonra məlum olur ki, mənzillər eyni anda başqa-başqa adamlara satılıb”.

Ekspert qeyd etdi ki, bu dəyişiklikdən sonra artıq vətəndaş müvafiq qurumun saytına daxil olub mənzil almaq istədiyi bina haqqında ətraflı məlumat əldə edə biləcək: “Vətəndaşın binanın istismara qəbul edilib-edilmədiyindən xəbəri olacaq. Müştəri biləcək ki, tikintiyə rəsmi icazə alınıb. Əmlakın reyestr kodu olacaq. Ev alan şəxs arxayın olacaq ki, bina təhvil veriləndə reyestrdən keçdiyinə görə mənzil çıxarışla təmin ediləcək. Çünki hələ də 10-15 il əvvəl tikilmiş binalar var ki, çıxarış ala bilməyiblər. Bəzi şərtlər var ki, onlara əməl edilmədiyinə görə, həmin binaların istismarına icazə verilməyib. Hazırda xüsusi layihə ilə müvafiq qurumdan icazə almış, lisenziyası olan MTK-lar hüquqi şəxs kimi reyestrə daxil olacaqlar. Yəni bu qaydalar hər bina tikənə şamil edilməyəcək”.

### REYESTRDƏ MƏNZİL ONU ALAN ŞƏXSİN ADINA QEYD EDİLƏCƏK

M.Rüstəmovun sözlərinə görə, hər bir ev həmin sistemdə qeydiyyatda olacaq: “Dövlət Xidmətində reyestr yaradılacaq, istismara qəbul edilmiş binalar həmin sistemdə görünəcək. Vətəndaş ilkin olaraq MTK-nın satış ofisinə müraciət edir, orada layihə ilə tanış olur və istədiyi mənzili seçir. İlkin alqı-satqı gerçəkləşir. Alqı-satqı vaxtı müqavilədə öhdəliklər yerinə yetirilən zaman elektron qaydada sistem yaradılacaq. MTK-nın öz portalı olacaq, oradan Xidmətə sorğu göndərəcək ki, filan binada tikdiyim, filan mənzil bu şəxsə satıldı. Sənədin biri MTK-da, digəri alıcıda qalacaq. Əsli isə Xidmətə göndəriləcək və vahid sistemə daxil ediləcək. Reyestrdə o mənzil həmin şəxsin adına qeyd ediləcək.

Bina tam hazır olduqdan və təhvil verildikdən sonra vətəndaş müraciət edərək müqaviləni təqdim edib çıxarışını 14 gün ərzində rahat şəkildə ala biləcək”.



Mülkədar Rüstəmov



Firdovsi Xəlilov

## MƏNZİL İKİNCİ ŞƏXSƏ BU HALDA SATILA BİLƏR

Müsahibimizin fikrincə, əvvəllər mənzilin satış hüququ MTK-da olurdu, bundan sonra isə yalnız vətəndaşda olacaq. Yəni bir nəfərə satılmış mənzil MTK tərəfindən ikinci şəxsə satıla bilməyəcək. Əgər mənzil kredit yolu ilə əldə edilibsə, MTK-nın belə bir hüququ var ki, vətəndaş mənzilin ödənişini tam ödəmədiyi təqdirdə, ödədiyi məbləği geri qaytarıb, mənzili ikinci şəxsə sata bilər”.

### MƏNZİLLƏRİN QİYMƏTİ 5-10 FAİZ ARTACAQ

Ekspert bu qərarın mənzil qiymətlərinə təsirindən də danışdı: “Bazarda son aylar artan qiymət dinamikası müşahidə olunur. Qərar qüvvəyə mindikdən sonra bu, qiymətlərə daha da təsir edəcək. İlkin bünövrədən və daha sonra MTK tərəfindən satış prosesində mənzillərin və birinci mərtəbələrdəki qeyri-yaşayış sahələrinin qiymətində 5-10 faiz artım baş verə bilər”.

### DİGƏR ÖLKƏLƏRDƏ DƏ BU SİSTEM MÖVCUDDUR

Əmlak məsələləri üzrə ekspert Firdovsi Xəlilovun sözlərinə görə, bu qaydanın optimal variantı Türkiyə və Belarusda mövcuddur: “Digər ölkələrdə inşaata başladıqda artıq portalda bütün bina virtual olaraq aktiv görünür. Mənzili seçirsiniz və istər hissəli, istər nağd ödənişlə alırsınız. Digər şəxslər həmin binadan mənzil almaq istədikdə hansı evlər boşdur, yalnız onu görə bilir. Binanın inşaatı gedə-gedə satışda da proses eyni portal vasitəsi ilə reallaşır”.

### ƏGƏR ŞƏFFAFLIĞA DİQQƏT YETİRİLSƏ...

F.Xəlilov qeyd etdi ki, yeni qərar həm dövlət, həm də müştərilər üçün sərfəlidir: “Çünki bəzi iş adamları bir mənzili bir neçə nəfərə sata bilirlər. Nəticədə zərərçəkən vətəndaşlar olur. Həmçinin məhkəmələrə, prokurorluq orqanlarına əlavə yük düşür. Bu portalın açılması həm o insanların iş yükünü, həmçinin dövlətin risklərini azaldır. Amma yaxşı olar ki, proses həyata keçirilərkən MTK-lar arasında ayrı-seçkilik aparılmasın, hər şey şəffaf olsun”.



# ŞƏHƏR İÇİNDƏ ŞƏHƏR İDEYASI

Bakının 2040-cı ilədək inkişafına dair Baş planda Bakıətrafı ərazidə vahid universitet şəhərciyinin yaradılması nəzərdə tutulur. Ekspertlər bu ideyanın həm təhsilin inkişafına təkan verə biləcəyini, həm də paytaxtda nəqliyyat sıxlığının əhəmiyyətli dərəcədə azalmasına səbəb olacağını düşünürlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Universitet şəhərcikləri yeni bir hadisə deyil - təhsil məkanlarının kampusları dünya təcrübəsində 18-ci əsrdən populyarlaşmağa başlayıb. Belə ki, dünyanın bir çox böyük universitetləri əvvəlcə kampuslar formatında yaradılıb və burada akademik korpuslar, yataqxanalar və digər infrastruktur obyektləri birləşdirilib. Məsələn, Oksford və ya Bolonya Universitetləri ənənəvi kampusun klassik nümunələridir. Hazırda dünyada Böyük Britaniya, Fransa, ABŞ-nin kampus modelləri effektiv forma kimi diktə edir. Belə ki, şəhərciklər təhsil, elm, innovasiya və biznesi vahid məkanda lokallaşdırmaqla yüksək təhsili və iqtisadi artımı təşviq edir.

Mütəxəssislərin fikrincə, dünya səviyyəli kampuslar, ilk növbədə, təhsilin ixracında mühüm amildir.

Artıq bizdə də Bakıətrafı ərazidə yaşıl universitet şəhərciyinin yaradılması təklif olunur. Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planında əksini tapan layihədə Bakı ətrafında universitet şəhərciyinin yaradılması nəzərdə tutulur. Layihə çərçivəsində bir sıra universitetlərin Bakıdan kənara köçürülməsi də istisna deyil.

### REGİONLARDA DA UNİVERSİTET ŞƏHƏRCİYİ

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı hesab edir ki, Baş planda universitet şəhərciyi barədə bəndin yer alması əhəmiyyətlidir: "Təbiidir ki, əgər universitet şəhərciyi yaratmaq nəzərdə tutulursa, bu, şəhərdən kənarda olacaq. Şəhər daxilində universitet şəhərciyinin yaradılması nə qədər real görünür? Universitet şəhərcikləri dünyanın bir çox qabaqcıl ölkələrində var və bunun yaxşı nümunələri ABŞ-də və Türkiyədə mövcuddur. Məsələn, son bir neçə ildə Türkiyədə Ardahan Universiteti üçün tikilən şəhərcik az qala böyük bir rayon mərkəzinin ərazisini əhatə edir. Bu şəhərcikdə hər şey var: tədris korpusları, tələbə yataqxanaları, kitabxanalar, müəllimlərin yaşaması üçün mənzillər və s. Hətta elə universitet şəhərciyi var ki, orada işıqforlar quraşdırılıb, bir korpusdan digərinə tələbə və müəllimləri daşımaq üçün avtobuslar hərəkət edir. Yəni tələbə və müəllimlər şəhərcikdən çıxmadan bütün zəruri məsələləri həll edə bilirlər. Bütün bunlar təhsilin keyfiyyətinə təsir göstərən başlıca amillərdir".

M.Qasımlı hesab edir ki, təkcə Bakıda deyil, digər şəhərlərimizdə də universitet şəhərciyi yaradılmalıdır: "Məncə yaradılacaq Qarabağ Universiteti Azərbaycan ali təhsilinin yeni bir modeli olacaq".


Musa Qasımlı

## KAMPUS FORMATINDA OLAN UNİVERSİTETLƏR

Təhsil eksperti Asif Cahangirov da universitet şəhərciyi ideyasını dəstəkləyir: "Universitetlərin şəhərdən kənarda yerləşdirilməsi və bir şəhərcik halında birləşməsi beynəlxalq təcrübədir. Kampus formatında olan universitetlərdə təhsilin keyfiyyəti yüksək olur. Bu formatda tələbələrin mükəmməl təhsil alması üçün zəruri laboratoriyalar, zəngin və 24 saat işləyən elektron kitabxana, tələbələrin əyləncəsi, idmanla məşğul olmaları üçün müxtəlif növ infrastrukturun yaradılması mümkündür". Ekspert hesab edir ki, universitet kampusları Bakının mərkəzində nəqliyyat sıxlığının aradan qalxmasına səbəb olacaq. Bu baxımdan, universitet şəbəkəsi təkcə paytaxtda cəmləşməməli, həmçinin bir sıra regionlarda da belə şəhərciklər yaradılmalıdır: "Bu, gənclərin regionlarda da kampus şəraitində təhsil almalarına yol açar. Digər tərəfdən, həmin ərazilərin sosial-iqtisadi inkişafı, şəhərlə kənd arasında fərqin azaldılması baxımın-dan da faydalı olar".


Asif Cahangirov

## "BİZDƏ UNİVERSİTETLƏRİN ÇOXU SƏS-KÜYLÜ YERLƏRDƏDİR"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Rüstəm Kamalın sözlərinə görə, universitet şəhərciyinin yaradılması ideyası şəhərin infrastrukturunu və urbanist fəlsəfəsini dəyişir: "Müşahidələrimə görə, universitet şəhərcikləri avtonom məkanda, yaşıl vadidə yerləşir. Universitet özünün bütün infrastrukturu ilə orada fəaliyyət göstərir. Təbii ki, bu, universitetlərin böyüməsinə də imkan verəcək. Bu baxımdan, orada tələbə kontingentinin sayı da çox olmalıdır. Əgər bir universitetdə 20-25 min tələbə yoxdursa, ondan hansı şəhərcik qurmaq olar?"


Rüstəm Kamal

Professorun fikrincə, bu layihə həmçinin şəhərlərin inkişafına da imkan yaradacaq: "Xankəndidə universitet fəaliyyət göstərsə, onun şəhərciyi də olsa, ora tələbələr axışar. Həmin universitet tanınmış olmalıdır ki, dünyanın hər yerindən ora oxumağa gəlsinlər və şəhərcik yaransın. Tələbənin çox olması, eləcə də alim və müəllimlərin çoxluğu universitetin statusunu da, ab-havasını da dəyişər. Belə balaca şəhərlərdə universitet yaratmağa dəyər. Çünki bizdə universitetlərin çoxu səs-küylü yerlərdədir. Məsələn, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində xüsusən yayda səs-küydən, maşın siqnallarının səsindən dərs keçmək olmur. Tələbələrin də fikri çöldə qalır. Amma Tübingen Universiteti Almaniyanın balaca şəhərində, Tartu Universiteti də Estoniyanın kiçik şəhərində, yaşıl vadidə yerləşir. Hər iki şəhər universitetlərinin adı ilə tanınır. Bizdə də universitetlərin yaranması şəhərlərin nüfuzunu qaldırar. Universitet şəhərciyi həm də Azərbaycan ali təhsilini pərakəndəlikdən qurtarar". Professorun fikrincə, bir neçə universiteti bağlayıb bir universitet strukturuna daxil etmək olar. Belə ki, bu, universitetin mərkəzləşməsinə və təmərküzləşməsinə gətirib çıxarar, həmçinin müxtəlif ixtisasdan olan tələbələrin bir məkanda təhsil almasına imkan verər: "Təsəvvür edin, bir şəhərcikdə gələcəyin mühəndisi, bəstəkarı, jurnalisti, filoloqu görüşür".

## "Nar" kubokunun sahibi "Breyn Rinq"in çempionu oldu



"Nar"ın dəstəyi ilə keçirilən "Breyn Rinq" bilik yarışının 22-ci mövsümü yekunlaşdı. Son mövsümdə "Bilik" kubokunun qalibi Göyçayın "FULL" komandası, "Nar" kubokunun qalibi isə "BirBank" komandası olmuşdu. Oyunun qaydalarına uyğun olaraq, Azərbaycan çempionu titulu uğrunda final görüşü bu komandalar arasında keçirildi və qalib "BirBank" komandası oldu.

Xatırladaq ki, oyunda 9 region və 7 universiteti təmsil edən 19 komanda mübarizə aparırdı. Qeyd edək ki, "Nar" ölkə gənclərinin intellektual asudə vaxt keçirməsinə dəstək məqsədilə "Breyn Rinq" bilik yarışının əsas tərəfdaşıdır. Mobil operatorun elm və təhsil istiqamətində gerçəkləşdirdiyi digər sosial layihələri haqqında daha ətraflı buradan oxuya bilərsiniz. (https://www.nar.az)

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# SOCAR İSTİQRAZLARI ÜZRƏ doqquzuncu kupon ödənişi edilib

**1 və 5 saylı "ASAN xidmət" mərkəzlərindən və Azərbaycandakı lisenziyalı bütün investisiya şirkətlərindən əldə edilməsi mümkün olan SOCAR İstiqrazları yüksək likvidliyə malikdir və qiyməti heç vaxt nominal dəyərindən (1 000 ABŞ dolları) aşağı düşməyib.**

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) İstiqrazları üzrə bir milyon 125 min ABŞ dolları məbləğində doqquzuncu kupon ödənişi edilib.

"SOCAR Capital" şirkətindən "Report"a verilən məlumata əsasən, SOCAR İstiqrazlarının nominal qiyməti 1 000 ABŞ dolları, tədavül müddəti beş il, illik gəlirliliyi 4,5 % təşkil edir. İstiqrazlar üzrə faiz gəlirləri rüblük qrafiklər əsasında ödənilir.

Bakı Fond Birjasında yerləşdirildiyi tarixdən indiyədək ən çox ticarət olunan korporativ qiymətli



kağıza çevrilən SOCAR İstiqrazları üzrə onun sahiblərinə ümumi qazancı 10 milyon 125 min ABŞ dollarına çatıb. Beş ilin yekununda toplam gəlir 22,5 milyon ABŞ dolları təşkil edəcək.

**SOCAR İSTİQRAZLARINA OLAN YÜKSƏK TƏLƏBAT**

27 aylıq müddət ərzində təkrar bazar əməliyyatları həcminin 40 milyon ABŞ dollarını üstələməsi və bağlanmış əqd sayının 700-ə yüksəlməsi SOCAR İstiqrazlarına olan yüksək tələbatın göstəricisidir.

1 və 5 saylı "ASAN xidmət" mərkəzlərindən və Azərbaycandakı lisenziyalı bütün investisiya şirkətlərindən əldə edilməsi mümkün olan SOCAR İstiqrazları yüksək likvidliyə malikdir və qiyməti heç vaxt nominal dəyərindən (1 000 ABŞ dolları) aşağı düşməyib. SOCAR istiqrazlarının növbəti kupon ödənişi mayın 1-də baş tutacaq.

# Son zamanlar dövlət qurumlarını hədəf alırlar

2023-cü il ərzində dövlət qurumlarının informasiya sistemlərində çoxsaylı audit aparılıb və 697 nöqsan aşkarlanıb. Ötən il bu rəqəm 597 olub və builki göstərici ötən il ilə müqayisədə 20 faiz çoxdur.

Oxu.Az xəbər verir ki, bu barədə Dövlət qurumlarının İT rəhbərlərinin III Zirvə toplantısında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin idarə rəisi Tural Məmmədov deyib.

O bildirib ki, bu rəqəm Dövlət informasiya sistemlərində tapılan boşluqlar əsasında yazılan hesablar, sızmış məlumatlar əsasında müəyyən olunan çatışmazlıqların hesabat sayıdır: "Ötən il ilə müqayisədə insidentlərin sayı çox deyil. İllik açılan sorğu sayı 7081 olub. Onun



**Foto:** Sabir Məmmədov/Global Media Group

da 6649-u emal olunaraq bağlanıb. İndikatorlarla dövlət qurumlarından daxil olan insidentləri araşdırırıq və zəruri indikatorlar bloklanır. İl ərzində statistikaya baxsaq dövlət qurumların müəyyən dövrlərdəki aktivliyini də müəyyənləşdirmək olar. İllik nəticəyə əsasən tərəfimizdən aparılan monitorinq nəticəsində 517 kiberhücum indikatoru, qurumların təqdim etdiyi insidentlərin araşdırılması nəticəsində isə 674 xüsusi kiberhücum indikatoru müəyyən edilərək bloklanıb. Bu da yüzlərlə kiberhücumun qarşısının alınması deməkdir. Dövlət qurumlarına diqqətli olmalarını və ən kiçik anomaliya halları zamanı dərhal bizə məlumat verməlƏrini tövsiyə edirik".

"Son zamanlar dövlət qurumlarını hədəf alırlar. Bu məlumatı biz saytlarımızda da yerləşdirmişik", - Tural Məmmədov deyib. O bildirib ki, böyük qurumları hədəf alan linklər olub: "İl ərzində 323 yeni subdomen, 119 yeni domen dövlət qurumlarının istifadəsinə verilib. Bu da yeni informasiya sistemlərinin artımını göstərir. Bir çox sahələrin elektronlaşdırılması, eləcə də təhlükəsizlik məsələlərini də ön plana keçirir. Biz artıq bu sahəyə daha çox resurs ayırırıq. 2023-cü il ərzində 186 saxta domen aşkarlanıb və bloklanıb. Bu da dövlət qurumlarının adlarına bənzədilmiş saxta domenlərdir. Adlara baxdıqda daha çox hansı dövlət qurumlarının hədəf alındığı aşkardır. Hakerlər bununla insanları aldadaraq, onların informasiyalarını oğurlamağı hədəfləyiblər".


## "CityNet" indi "Nar" mağazalarında

Abunəçilərinin hər zaman rahatlığını təmin edən "Nar" indi öz mağazalarında "CityNet" internet provayderinin xidmətlərini də təqdim edir. Bu əməkdaşlıq çərçivəsində, "Nar"ın Elmlər Akademiyası (H.Cavid pr., 48) və Memar Əcəmi (Hüseynbala Əliyev 4) mağazalarına yaxınlaşaraq "CityNet" xidmətləri haqqında məlumat almaq və abunə olmaq mümkündür. Müxtəlif xidmətləri vahid mərkəzdən təqdim etməklə əlçatanlıq strategiyasına əsaslanan "Nar" mağazalarında yüksək müştəri xidməti ilə sərfəli təkliflərdən yararlanmaq imkanı verir.

Qeyd edək ki, "CityNet" 17.99 AZN-dən başlayan qiymətlərlə yüksəksürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV xidmətləri təqdim edən internet provayderidir. "CityNet" xidmətləri haqqında daha ətraflı buradan tanış ola bilərsiniz. (https://www.citynet.az/tarifs)

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

nar | CityNet



HƏKİMLƏR BU QAYDALARA MÜTLƏQ ƏMƏL ETMƏYİ MƏSLƏHƏT GÖRÜRLƏR

# BU VİRUS ÖLDÜRMÜR, AMMA SÜRÜNDÜRÜR



İnsanlar son üç ildə müşahidə olunan xəstəliklərin əvvəlkilərlə müqayisədə ağır keçdiyini vurğulayırlar. Məsələn, "qızılca əvvəlki qızılca deyil", yaxud "qrip heç vaxt bu qədər sərt olmayıb" kimi fikirlərə tez-tez rast gəlirik.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar ölkə ərazisində kəskin virus infeksiyaları yayılıb. Böyüklü, kiçikli xeyli insan xəstədir. Azyaşlıların əksəriyyəti qızılcaya yoluxur, böyüklər isə qızdırma ilə "vuruşur". Üstəlik, hamı xəstəliyin gec sağalmasından, çox əziyyət verməsindən şikayətlənir. Ürək bulanması, baş ağrısı, yüksək temperatur, sümük ağrıları bütün xəstələrdə müşahidə olunur. Sosial şəbəkələrdə "virus öldürmür, amma süründürür", "qızdırma 39 dərəcədən aşağı düşmür", "öskürməkdən boğazım qopub düşəcək", "sümüklərim sızıldayır" kimi xəstə şikayətlərinə rast gəlirik.

Bəs yayılan virus nədir? İnsanlar necə yoluxur?

### COVID-19-UN YENİ VARİANTI İLƏ ÜZ-ÜZƏYİK?

TƏBİB-dən verilən məlumata görə, hər il olduğu kimi payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar tənəffüs yolu infeksiyalarında artım müşahidə edilir: "Son günlərdə əhali arasında boğaz qıcıqlanması, boğaz ağrısı, yüksək olmayan temperatur, oynaqlarda ağrı, burun tutulması simptomları ilə müşayiət olunan tənəffüs yolu infeksiyalarından şikayətlər artıb. Hətta bəzi xəstələrdə iybilmə, dadbilmə duyğusunun itirilməsi də müşahidə olunur. Xəstələr bunun COVID-19 virusunun yeni variantlarından biri olduğunu düşünərək təşviş keçirirlər".

### TƏBİB ƏHALİYƏ DƏFƏLƏRLƏ ÇAĞIRIŞLAR EDİB

Qurumdan bildirilir ki, yayılan xəstəliyi COVID-19 virusunun yeni variantları ilə əlaqələndirməyə heç bir əsas yoxdur: "Tənəffüs yolu infeksiyalarının (qrip, kəskin respirator xəstəliklər və s.) bəzilərində iybilmə və dadbilmə duyğusunun itirilməsi şikayətləri müşahidə edilə bilər. Mövsümlə əlaqədar sadaladığımız şikayətlərlə həkimə müraciət sayında artım olması hər zamankı kimi gözlənilləndir. TƏBİB respirator infeksiyaların artacağı ilə bağlı dəfələrlə əhaliyə çağırışlar edib. Əhalinin respirator gigiyena qaydalarına əməl etmələri tövsiyə olunub, qrip vaksinlərinin tətbiqi həyata keçirilib və proses davam etdirilir".

### UŞAQLAR, HAMİLƏ QADINLAR, AHIL ŞƏXSLƏR

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov da bildirir ki, qış fəsli ilə əlaqədar hazırda mövsümi qrip, müxtəlif respirator virus infeksiyaları, o cümlədən koronavirus infeksiyasına yoluxma hallarına təsadüf edilir. Soyuq aylarda yoluxma hallarının artımı insanların daha çox toplaşdığı qapalı məkanlarda sıx təmaslar zamanı infeksiyaların hava-damcı üsulu ilə yayılması üçün əlverişli şəraitin yaranması ilə əlaqədardır: "Bundan başqa, otaqların daha az havalandırılması, xəstəliyin yüngül formalarına rast gəlinməsi səbəbindən xəstələrin evdə oturmayaraq aktiv həyatını davam etdirməsi, tibbi maskadan istifadə edilməməsi, məsafənin gözlənilməməsi bu cür xəstəliklərin nisbətən sürətli yayılmasına öz "töhfəsini" verir. Həmçinin, payız-qış fəslində insanlarda immunitetin dövrü zəifləməsi, soyuq havanın yuxarı tənəffüs yollarının selikli qişasına təsiri nəticəsində mikroblara qarşı müdafiə faktorlarının zəifləməsi, qida rasionunda vitamin çatmazlığı, havanın temperaturunun tez-tez dəyişməsi ilə əlaqədar geyimin düzgün seçilməməsi və s. faktorlar da ümumilikdə orqanizmi zəiflədir və yoluxmaya həssaslığı artırır. Bu müxtəlif infeksiyalar içərisində nisbətən daha çox fəsadlı keçən məhz qripdir. Xüsusən də immundefisit halları xəstəliyin uzanmasına, sağalmanın daha gec baş verməsinə səbəb olur".



Təyyar Eyvazov

## SADƏ QAYDALARA ƏMƏL ETMƏK TƏLƏB OLUNUR

T.Eyvazovun sözlərinə görə, infeksiyaların yayılma sürətini azaltmaq üçün sadə qaydalara əməl etmək tələb olunur. Xəstə insan kollektivə daxil olmamalı, evdə oturaraq özünü təcrid etməlidir. Xüsusən, risk qrupuna daxil olan şəxslər əhalinin sıx toplaşdığı məkanlardan uzaq durmalı, ictimai nəqliyyatda tibbi maskadan istifadə etməli, əl, respirator gigiyena qaydalarına əməl etməlidirlər. Valideynlər xəstələnmiş uşaqları bağçaya, məktəbə buraxmamalıdırlar. Həssas qrupa daxil olan insanlar isə ərazi üzrə tibb müəssisələrinə müraciət edərək qripə qarşı vaksinasiya olunmalıdırlar.

### COVID-19 VİRUSU VAR

İnfeksionist-hepatoloq Mərdan Əliyev deyir ki, ölkə ərazisində hazırda bir neçə növ virus özünü göstərir. İnsanlara ən çox əziyyət verən infeksiya qripdir: "Qızılca, rinovirus, rotavirus, qrip, hətta koronavirus da ölkə ərazisində mövsümlə əlaqədar olaraq geniş yayılıb. Koronavirus yüngül keçdiyi üçün bununla bağlı xəstəxanalara kütləvi şəkildə müraciət olunmur, test də edilmir. Bu gün insanların şikayətləndiyi və ağır keçən virus qrip infeksiyasıdır. Xəstəlikdən sonra da uzun müddət öskürək davam edir. Rinovirus, rotavirus daha yüngül keçir, adətən ciddi narahatlıq yaratmır".

## QRİP AĞIR FƏSADLARI OLAN XƏSTƏLİKDİR



Mərdan Əliyev

Həkim vurğulayır ki, qrip hər zaman ağır xəstəlik hesab olunub, sadəcə, insanlar bütün növ halsızlıqları, soyuqdəymələri qrip adlandırdığı üçün əsl qripi hiss etməyib: "Qış aylarında, xüsusilə də dekabr ayından mart ayına qədər bizim ölkədə qrip olur və biz ona asanlıqla yoluxa bilirik. Qripə dırnaqarası xəstəlik kimi yanaşmamalıyıq. Qrip kifayət qədər ağır fəsadları olan, özümüzü gözləməsək, pnevmoniyaya qədər aparan xəstəlikdir".

### VİRUSLAR HƏR İL ÖZ GÜCÜNƏ GÜC QATIR?

İnsanlar son üç ildə müşahidə olunan xəstəliklərin əvvəlkilərlə müqayisədə ağır keçdiyini vurğulayırlar. Məsələn, "qızılca əvvəlki qızılca deyil", yaxud "qrip heç vaxt bu qədər sərt olmayıb" kimi fikirlərə tez-tez rast gəlirik. Həqiqətən viruslar hər il öz gücünə güc qatır, yoxsa insanlar mübarizədə zəifləyiblər?

Həmsöhbətimiz bildirir ki, bu zəifləmə koronovirusun bizə vurduğu zərbələrdəndir: "Koronavirus pandemiyasından sonra bütün yoluxanların immun sistemində zəifləmə baş verdi. Buna görə də əvvəlki illərlə müqayisədə viruslarda ağır keçməyə meyillik özünü göstərir".

# SANKİ YAXŞILIQ ETMƏK ÜÇÜN DOĞULMUŞDU...

Görkəmli xanəndə, bəstəkar və pedaqoq Əlibaba Məmmədovun həm doğum, həm də vəfatı tarixi fevral ayına təsadüf edir. O, dünyadan köçən günə qədər yaradıcılığına davam etdi. Tələbələri onu musiqi ilə yaşayan sənətkar kimi xatırlayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Milli musiqimizi onun bəstələdiyi mahnılar, təsniflər, rənglər olmadan təsəvvür etmək mümkün deyil. Mahnılarını ürəklə oxuyan xanəndələri özü də sevirdi. Onlar üçün mahnılar da yazırdı. “Vətən yaxşıdır” təsnifi şəhidimiz Xudayar Yusifzadənin ifasında səslənəndə “Bir tərəfdən təsnifin dillər əzbəri olması məni sevindirir, digər tərəfdən isə Xudayarın vaxtsız itkisi məni çox kədərləndirir. O görüntülər hamıdan çox mənə təsir etdi”, - deyə ağsaqqal təmkini ilə hisslərini dilə gətirmişdi.

Görkəmli xanəndə, bəstəkar və pedaqoq Əlibaba Məmmədovun həm doğum (5 fevral), həm də vəfatı tarixi (25 fevral) fevral ayına təsadüf edir. Sənət yoldaşları deyirlər ki, xanəndə hələ sağlığında “əmi”, “ustad”, “müəllim” hörmətini ünvanına əbədiləşdirib.

**“HƏMİŞƏ YERİ GÖRÜNÜR...”**

“Onun haqqında saatlarla danışsam yorulmaram”, - deyən Xalq artisti Mənsum İbrahimov mərhum xanəndə ilə tanışlığının tarixçəsini xatırlayır: “Asəf Zeynallı adına Musiqi Məktəbinə qəbul olan gündən Əlibaba müəllimlə tanışlığım başlayıb. Mən onun sinfinə də gedirdim, səsimdən xoşu gəlirdi. Sonra mən müsabiqə qalibi oldum və yaxşı münasibətimiz yarandı. Ümumiyyətlə, Əlibaba müəllimin gənclərə xüsusi qayğısı vardı, yaxşı ifaçıları sevirdi. Gənclərdən öz məsləhətini heç vaxt əsirgəmirdi. O, sanki yaxşılıq etmək üçün doğulmuşdu. 2005-ci ildən bəri Muğam Televiziya müsabiqələri başladı. Canlı efirlərdə, bölgələrdə birlikdə olduq. Əlibaba müəllimdən sonra bir neçə müsabiqə keçirilib. Hər dəfə iştirak edəndə “Əlibaba müəllimin yeri görünür” deyirəm. Müdrik məsləhətləri, uşaqları ərkyana danlamağı, baməzə sözləri, səlis qəzəl deməsi ilə həmişə xatirimizdədir”. M.İbrahimov ustad xanəndəni həm də mahnı və təsniflərin gözəl bəstəkarı kimi yada salır: “Əlibaba müəllim qəzəliyyatı gözəl bilirdi. Çox istedadlı adam idi. Onun bəstələdiyi 100-dən çox mahnı var, əksəriyyəti də vətənpərvərliklə bağlıdır. Şəhidimiz Xudayarın dilində səslənən təsnifi sonradan “Xudayar təsnifi” kimi məşhurlaşdı və xalqımız tərəfindən sevildi. Dünyasını dəyişməmişdən 3-4 il əvvəl mənim üçün də bir mahnı yazdı və “Sənin səsinə bir mahnı yazmışam”, - deyə efirdən müraciət etdi. “Sənsizləmiş dəli könlüm” mahnısını hazırladım, çox bəyəndi. Əlibaba müəllim dünyadan köçən günə qədər yaradıcılığı davam etdi. O, musiqi ilə yaşayırdı”.

**“GÖZÜMÜZÜN QARŞISINA MUĞAMIN SÜTUNU GƏLİR”**

“Əlibaba Məmmədov deyəndə gözümüzün qarşısına muğamın sütunu gəlir”, - deyə Xalq artisti Səkinə İsmayılova xatirələrini bölüşür: “Onunla uzun illər çiyin-çiyinə Muğam Televiziya Müsabiqəsində gəncləri seçmişik. Onun lətifələrini, xatirələrini eşitmişik. Mənə böyük diqqəti və qayğısı vardı. Son illərdə heç kəsi qəbul etmirdi. Bir gün “Sizi görmək istəyirəm”, - deyə zəng edəndə “Bilirsən ki, sənin xətrini çox istəyirəm, gəl” dedi. Tələbələrim və musiqiçilərimlə birgə kiçik bir məclis düzəltdik, dedik, güldük, oxuduq. Əlibaba müəllimin mahnılarından ifa etdik. Mən Əlibaba müəllimin bir mahnısını oxudum. Dedi “Bu mahnı heç özümün yadımda deyil”. Gənc yaşlarımdan onun mahnılarının aşiqi idim. Sağ olsun Birinci xanım Mehriban Əliyeva, Əlibaba müəllimin bəstələdiyi 100-dən artıq mahnını notları ilə birlikdə bir kitab şəklində ərsəyə gətirtdi və bizə xatirə qaldı”.

**ÖZ MAHNILARININ ƏN GÖZƏL İFAÇISI**

Bəstəkarlar İttifaqının katibi, Xalq artisti Sərdar Fərəcov el məclislərində Əlibaba Məmmədovun mahnı və təsniflərinin böyük şövqlə ifa olunmasına toxunur: “Əlibaba Məmmədovun ifasını uşaq yaşlarından eşidib sevmişik. Öz mahnılarının ən gözəl ifaçısı da elə özü idi. Səsinə uyğun yazdığı mahnılar onu hamıdan fərqləndirirdi. 1973-cü ildə mən Asəf Zeynallı adına Musiqi Texnikumuna daxil olanda Əlibaba müəllim o zaman gənc müəllimlərdən idi. Həm də “Humayun” ansamblını yaratmışdı. Gənc tələbələri də həmin ansamblda onunla bərabər çıxış edirdilər. Tale elə gətirdi ki, mən 2013-cü ildə Muğam Televiziya Müsabiqəsinə münsif kimi dəvət olunanda Əlibaba müəllim münsiflər heyətinin ağsaqqalı idi. Bakı ətrafına, bölgələrə bərabər səfərlərimiz zamanı hər yerdə onun necə sevildiyinin şahidi olurduq. Əlibaba müəllimi dinləmək adama zövq verirdi. Həyatı boyu ustadları görmüşdü. Seyid Şuşinskinin tələbəsi olmuşdu. Qurban Pirimovdan, Bəhram Mansurovdan, Mütəllim Mütəllimovdan söhbət açırdı. Əbülfət Əliyevlə, Qulu Əsgərovla dostluq etmişdi, onların içərisində özü də bir bənzərsiz inci idi. Həyatda kim onunla təmasda olmuşdusa, bu, onun bəxtinin gözəlliyi idi”.

**“BU, BİZ GƏNCLƏR ÜÇÜN BÖYÜK DƏYƏR İDİ”**

Əməkdar artist Təyyar Bayramov “Muğam müsabiqələrindən yolu keçən hər bir ifaçıya Əlibaba müəllim böyük diqqət yetirib”, - deyə ustadı xatırlayır: “Mənə müsabiqədən qabaq qulaq asmışdı. “Çox gözəl səsin var” dedi. Həqiqətən də o müsabiqələr gözəl səsləri ortaya çıxardı. Əlibaba müəllim hansı səhvi deyirdisə, hansı tövsiyəni verirdisə, məsləhətlərinə əməl edirdik”.

T.Bayramov ustad xanəndənin bir neçə mahnısını ifa etdiyini deyir: “Mahnılarda yenilik edəndə “Sən yaxşı yanaşarsan”, - deyə müsbət rəyini də almışam. Mənim üçün “Azərbaycan” adlı bir mahnı yazmışdı. Əlibaba müəllim mənə və sənət dostlarıma həmişə xoş sözlərini deyirdi. Bu, biz gənclər üçün böyük dəyər idi. “Siz muğamlarımızın layiqli davamçılarısınız” deməklə çiynimizə böyük bir yük qoyurdu”.



Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
3 FEVRAL ŞƏNBƏ 2024
www.kaspi.az



# XAVİ DƏ "BARSA"YA DƏRMAN OLA BİLMƏDİ

**Onun ən böyük çatışmazlığı qitəmiqyaslı turnirlərdə uğur əldə edə bilməməsidir. Bu il ölkə çempionatında da işlər qaydasında getmir. Komanda hazırda adət etmədiyi dördüncü pillədə qərarlaşıb.**

Hər yaxşı futbolçudan yaxşı məşqçi olmur. Nə qədər klassik ifadə olsa da, bu tezis dəfələrlə özünü doğruldub. Əvvəllər bir sıra əfsanəvi futbolçular məşqçi kimi uğursuzluğa düçar olublar. Son illər bir çox klublar öz əfsanələrini baş məşqçi kürsüsünə oturtsalar da, nəticə əldə edə bilməyiblər. Məsələn, "Milan"da Filippo İnzaqi, Klarens Zeedorf, "Yuventus"da Andrea Pirlo, "Mançester Yunayted"də Ule Qunnar Sulşer belə nümunələrdəndir. "Barselona"da isə Xavi həmin "karvan"a qoşulmaq üzrədir. Düzdür, onun yaxşı məşqçi olmayacağını iddia etmək üçün hələ tezdir, lakin son zamanlar yaşananlar bu fikrin müdafiəçilərinin sayını artırıb.

### ÜÇ İLƏ İKİ TİTUL

Qətər "Əl-Sədd"ində debüt etmiş Xavi orada bir sıra titullar əldə etdikdən sonra artıq böyük klub çalışdırmağa hazır hesab edildi və 2021-ci ilin noyabrında klub prezidenti Xuan Laportanın dəvəti ilə "Barselona"nın baş məşqçisi təyin olundu. O, Kataloniya klubunun "sükanı arxası"nda niderlandlı Ronald Kumanı əvəzlədi. Komandanı 9-cu pillədə qəbul edən mütəxəssis yekunda gümüş medalçı edə bildi.

Növbəti mövsümü Xavinin qısa məşqçilik karyerasının ən şanlı səhifəsi adlandırsaq, yanılmarıq. 2023-cü ilin yanvarında o, "Barsa"ya İspaniya Super Kubokunu qazandırdı. "El-Klassiko"da "Real Madrid" üzərində qələbə Xavinin Kataloniya təmsilçisində məşqçi kimi ilk titulu oldu. Mövsümün sonunda isə o, komandanın çempionluq həsrətinə son qoya bildi. Sonuncu dəfə 2018/19 mövsümündə İspaniyanın ən güclüsü olan "göy-qırmızılar" 4 il sonra istəyinə çatdı. Azarkeşlər klubun Pep Qvardioladan sonra, nəhayət, istədiyi məşqçini tapdığını düşünməyə başlamışdılar. Elə Xavi özü də taktiki baxımdan özünü keçmiş çalışdırıcısına bənzədir. "Barsa" onun rəhbərliyi altında ənənəvi futbolundan imtina etmir, Yohan Kroyfdan gələn, Qvardiolanın inkişaf etdirdiyi ənənələrə sadiqdir. Lakin bu mövsüm gözləntilər özünü doğrultmur.



Pep Qvardiola

## AVROKUBOKLARDA DİŞSİZLİK

La Liqada 21 turdan sonra "Barselona" 44 xalla 4-cüdür. Komanda lider "Jirona"dan, əzəli rəqibi "Real Madrid"dən 11 xal geri qalır. Son turda "Barsa" öz meydanında "Vilyarreal"a 3:5 məğlub oldu. 0:2-dən 3:2 önə keçməsinə baxmayaraq, yekunda yaşanan məğlubiyyət azarkeşlərin də, Xavinin özünün də səbir kasasını daşırdı. Oyunu "biabırçılıq" adlandıran çalışdırıcı qarşılaşmadan sonra mövsümün sonunda komandanı tərk edəcəyini açıqladı. Xavinin "Barsa"da ən böyük çatışmazlığı qitəmiqyaslı turnirlərdə uğur əldə edə bilməməsidir. Komanda ilk mövsümdə Avropa Liqasının ¼ finalında dayandı. Çempionluq mövsümündə Xavi komandanı Çempionlar Liqasının qrupundan çıxara bilmədi. Komanda "Bavariya" və "İnter"lə mübarizədə qrup üçüncüsü olaraq Avropa Liqasına yuvarlandı. Burada isə pley-off mərhələsində "Mançester Yunayted"ə məğlubiyyət daha bir avrokubok macərasının qısa çəkməsinə səbəb oldu. Bu mövsüm "Barsa" Çempionlar Liqasında mərhələ adlamağı bacarıb. Lakin qrup lideri olan komandanın ümumi performansı nəzərə alındıqda çox irəli getməsi inandırıcı görünmür.

## BAŞ MƏŞQÇİ İLƏ RƏHBƏRLİK ARASINDA TRANSFER NARAZILIQLARI

Xavi dövründə "Barsa"nın transfer fəaliyyətini əksər mütəxəssislər birmənalı qarşılamırlar. Çünki prosesdə natamamlıq və təzadlar mövcuddur. Öncə yaşlı Dani Alveşin gətirilməsi, daha sonra buna əks addım olaraq Serxio Buskets, Jordi Alba kimi oyunçuların yaşının çox olması səbəbindən yola salınması kimi addımlar atıldı. Digər transferlər, komanda quruculuğu ardıcıl həyata keçirilmədi. Ferran Torres, Adama Traore, Pyer-Emerik Obameyanq, Joau Feliks, Oriol Romeu, hətta Robert Levandovski kimi oyunçuların gətirilməsində Xavinin istəkli olmadığına dair məlumatlar var. Digər tərəfdən, baş məşqçinin narazılığına baxmayaraq, Usman Dembelenin göndərilməsi onun işinə mane olan amillərdən idi.

La Liqada çempionluq ehtimalları çox azdır. Ölkə kubokunda da komanda mübarizəni dayandırıb. "Barsa"nın mövsüm üçün əsas hədəfi Çempionlar Liqası ilə bağlıdır. Orada "Mançester Siti", "Bavariya", PSJ, "Real Madrid" kimi çox iddialı kollektivlərin olmasına baxmayaraq, Kataloniya cəbhəsindən məqsədin məhz qitənin ən güclüsü olmaq olduğu mesajları verilir. Bu, həm də Xavi üçün qapını möhkəm çırpmaq imkanıdır. Xavinin mövsümün ortasında belə qərar verdiyini açıqlaması komandaya, şübhəsiz ki, təsir edəcək. Bəzi xəbərlərə görə, onun qərarı futbolçular üçün tamamilə gözlənilməz olub. Mövsümün qalan hissəsində oyunçuları matçlara köklənmək elə də asan olmayacaq.

Digər tərəfdən, klub artıq növbəti mövsüm üçün baş məşqçi axtarışlarına başlamaq fürsəti əldə edib. Hazırda "Barsa" ilə adı daha çox hallananlar "Liverpul"dan ayrılacaq Yurgen Klopp, Almaniya millisi və "Bavariya"nın sabiq çalışdırıcısı Hansi Flik və İtaliya "Bolon-ya"sında oynatdığı cəsarətli futbolla diqqət çəkən Tiaqo Mottadır.



Yurgen Klopp · Hansi Flik · Tiaqo Motta